DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 05 (322) / MAY 2018-Cİ İL

# PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT EDİB



Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni milli bayram - Respublika Günü münasibətilə ziyarət edib.

Abidənin ətrafında fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısı abidənin önünə əklil qoyub.

Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

* * *

Düz 100 il bundan əvvəl - 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin həyatına böyük tarixi hadisə kimi daxil oldu. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi. 1918-ci il mayın 28-də qəbul edilən İstiqlal Bəyannaməsindən - Əqdnamədən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik hisslərini daha da gücləndirdi.

Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, ordu quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Dünya birliyi tərəfindən tanınan Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində ölkəmizin beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayında bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

XX əsrin sonunda yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacardı. Yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Beləliklə, Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti quruldu və sürətli inkişaf yoluna qədəm qoydu.

Ulu Öndərimiz dəfələrlə bildirmişdi ki, biz bu gün demokratik Azərbaycan dövlətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq. Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdəki yeri və roluna xüsusi qiymət verən Heydər Əliyev deyirdi: "Biz ilk Demokratik Cümhuriyyətin yaranması gününü əziz tutaraq, onu Azərbaycanın dövlət müstəqilliyi günü – Respublika Günü elan etmişik və bu, bizim milli bayramımızdır".

Ümummilli Liderin bu siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlətimizin başçısının Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Sərəncam imzalaması, 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etməsi onun milli dövlətçilik tariximizə diqqət və qayğısının göstəricisidir.

## DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ MÜBARİZ QURBANLI BALAKƏNDƏ VƏTƏNDAŞLARI QƏBUL EDƏCƏK

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam edir.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı mayın 31-də Balakəndə Zaqatala, Balakən və Qax rayonlarının sakinlərini qəbul edəcək. Qəbul Balakən rayon Mədəniyyət Mərkəzində (ünvan: Heydər Əliyev prospekti 42) saat 10:00-da keçiriləcək.

Qəbula gəlmək istəyən vətəndaşlardan Dövlət Komitəsinin Zaqatala bölgəsi üzrə şöbəsinə müraciət etmələri xahiş olunur.

*DQİDK-nın bölgə şöbə müdiri vəzifəsini icra edən: İlqar Vəliyev*

*Mob: (050) 673-15-07*
*Telefon: (02422) 5-32-23*
*e-mail:chairman@scwra.gov.az*
*info@scwra.gov.az*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 100 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBUL TƏŞKİL OLUNUB

## Prezident İlham Əliyev rəsmi qəbulda iştirak edib



Mayın 28-də Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbul təşkil olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər.

Azərbaycanın dövlət himni səsləndirilib.

Dövlətimizin başçısı rəsmi qəbulda nitq söyləyib.

Prezident İlham Əliyevin nitqi

- Hörmətli xanımlar və cənablar.

Mən sizi və bütün Azərbaycan xalqını Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisədir. İlk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı azadlıqsevər, mütərəqqi xalqdır. Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır. Bir neçə il bundan əvvəl mənim Sərəncamımla Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmışdır. Xalq Cümhuriyyətinin qurucularının adları əbədiləşdirildi. Bu il isə Azərbaycanda "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunmuşdur və həm ölkəmizdə, həm də bir çox xarici ölkələrdə bu yubileyi qeyd edərək biz böyük tədbirlər keçirmişik, keçiririk və ilin sonuna qədər bu tədbirlər keçiriləcəkdir.

Bir daha demək istəyirəm ki, biz bu tarixi hadisə ilə haqlı olaraq fəxr edirik. Azərbaycan Xalq Cümhuriyyəti 23 ay ərzində fəaliyyət göstərmişdir. Ancaq bu müddət ərzində böyük işlər görə bilmişdir. Azərbaycanın dövlət bayrağı təsis edilmişdir, Azərbaycan vətəndaşlığı təsis edilmişdir, milli ordumuz yaradılmışdır. Gələn ay biz ordumuzun 100 illiyini qeyd edəcəyik. Azərbaycanın Milli Ordusu 1918-ci ilin sentyabrında Qafqaz İslam Ordusu ilə birlikdə Bakını erməni-bolşevik dəstələrindən, işğaldan azad etmişdir və bizim qədim tarixi şəhərimiz olan Bakını Azərbaycan xalqına qaytarmışdır. Xalq Cümhuriyyəti tərəfindən sərhəd dəstəsi yaradılmışdır. Gəncənin tarixi adı qaytarılmışdır. Qısa müddət ərzində 200-dən çox qanun qəbul edilmişdir. Əlbəttə ki, onların arasında qadınlara səsvermə hüququnun verilməsi qanunu xüsusi yer tutur. Bakı Dövlət Universiteti yaradılmışdır və bu, onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyəti kadrların yetişdirilməsi işində, təhsilin inkişafında böyük işlər görmək əzmində idi. Azərbaycan dili - ana dili bütün təhsil müəssisələrində qəbul edilmişdir.

Bir sözlə, görülmüş işlər çox idi. Xalq Cümhuriyyətinin niyyəti ondan ibarət idi ki, güclü dövlət yaratsınlar və Azərbaycan xalqı azadlıq, əmin-amanlıq şəraitində yaşaya bilsin. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, 23 aydan sonra respublika süqut etdi. Bu, bizim böyük faciəmizdir. Mən tam əminəm ki, əgər 1920-ci ildə müstəqillik əldən verilməsəydi, bu gün Azərbaycan dünyanın ən zəngin və ən inkişaf etmiş ölkələrinin sırasında ola bilərdi. Çünki bizim təbii ehtiyatlarımız, coğrafi yerləşməyimiz imkan verirdi ki, bu təbii resurslardan biz səmərəli şəkildə istifadə edək. XIX əsrin ikinci yarısında - XX əsrin əvvəllərində dünya neft hasilatının böyük hissəsi məhz Azərbaycanda, Bakıda təmin edilmişdir.

Əfsuslar olsun ki, biz müstəqilliyi itirdik. Bu, bir daha onu göstərir ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətin işdir. 1918-ci ildə qaldırılmış bayraq 1920-ci ildə endirildi və onu bir də o tarixdən 70 il sonra Naxçıvanda, Naxçıvanın Ali Məclisinin sessiyasında Ulu Öndər Heydər Əliyev qaldırmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi Naxçıvan Ali Məclisinin sessiyasında qəbul edilmişdir.

XX əsrdə Azərbaycan iki dəfə müstəqilliyə qovuşmuşdur, ikinci dəfə 1991-ci ildə. Bu da tarixi şans idi və Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan ikinci dəfə müstəqil ölkə kimi yaşamağa başlamışdır. Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illəri ölkəmiz üçün faciəli, çox ağır illər kimi tarixdə qaldı. Əfsuslar olsun ki, Azərbaycan rəhbərliyində olan qüvvələr 1991-1993-cü illərdə ölkəmizi lazımi səviyyədə idarə edə bilməmişlər. Onların üzərinə düşən yüksək məsuliyyəti dərk etməmişlər və gənc müstəqil dövləti demək olar ki, idarəolunmaz vəziyyətə salmışdılar. 1991-1993-cü illərdə Azərbaycanda yaşanan xoşagəlməz hadisələr, hallar ölkəmizin müstəqilliyini sual altına qoymuşdur. Xüsusilə 1992-ci ildə AXC-Müsavat cütlüyünün dövlət çevrilişindən, hakimiyyətin güc yolu ilə zəbt edilməsindən sonra vəziyyət daha da ağırlaşdı. Ölkəmizdə xaos, anarxiya, özbaşınalıq hökm sürürdü. AXC-Müsavat hakimiyyəti talançılıqla məşğul idi. Torpaqlarımız işğal altına düşmüşdür və bununla bağlı çoxsaylı qaçqınlar-köçkünlər yaranmışdır. AXC-Müsavat hakimiyyəti qardaş qanı axıtdı, vətəndaş müharibəsinə start verdi və bu, xalqımızın böyük faciəsi idi.

Bir sözlə, o illər bizim tariximizdə qara ləkədir, rüsvayçılıq illəridir. Azərbaycan xalqı cəmi bir il o antimilli hakimiyyətə dözə bildi və bir ildən sonra o hakimiyyəti tarixin arxivinə göndərdi. Azərbaycan xalqı öz liderinə - Heydər Əliyevə müraciət etmişdir, onu hakimiyyətə dəvət etmişdir və nə qədər müdrik xalq olduğunu bir daha sübut etmişdir. Heydər Əliyevin hakimiyyətə dəvət edilməsinin bir çox səbəbləri var idi. İlk növbədə, onun Azərbaycanın rəhbəri kimi 1970-1980-ci illərin əvvəllərində gördüyü işlər, Azərbaycanın inkişafı, quruculuq və abadlıq işləri xalqın yaddaşında əziz xatirə kimi qalmışdır. Məhz onun rəhbərliyi ilə 1970-ci illərdə Azərbaycan sovet məkanında ən geridə qalmış yerdən ən qabaqcıl yerə yüksəlmişdir. Digər səbəblər ondan ibarətdir ki, Heydər Əliyev xalqımız üçün ən ağır məqamlarda daim xalqla birlikdə olmuşdur, böyük müdriklik, cəsarət göstərmişdir. Qanlı Yanvar faciəsindən dərhal sonra - 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək sovet hakimiyyətini, Kommunist Partiyasını törətdiyi cinayətə görə pisləmişdir, tənqid etmişdir, o qanlı faciəni qınamışdır, Azərbaycan xalqının ağrılarını bütün dünyaya çatdırmışdır. O vaxt AXC-Müsavat təşkilatı demək olar ki, qorxudan görünmürdü, gizlənmişdir, fərarilik etmişdir. Heydər Əliyev təkbaşına, özü də Sovet İttifaqının mərkəzində öz haqq səsini ucaltmış, xalqla həmrəyliyini göstərmiş və bu faciəni bütün dünyaya çatdırmışdır. Azərbaycan xalqı əlbəttə ki, bu tarixi yaxşı bilir. Naxçıvanda fəaliyyət göstərdiyi dövrdə Ulu Öndər Naxçıvanı erməni işğalından qoruya bilmişdir, o da çox çətin vəzifə idi. Naxçıvan düşmənin əhatəsində idi və orada özünümüdafiə qrupları təşkil edilmiş və düşmənə layiqli cavab verilmiş, düşmən yerinə oturdulmuşdur.

Qeyd etdiyim kimi, Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağını ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının Ali

Davamı səh. 3

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 100 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBUL TƏŞKİL OLUNUB

## Prezident İlham Əliyev rəsmi qəbulda iştirak edib



Əvvəli səh. 2

Məclisinin sessiyasında dövlət bayrağı kimi məhz Heydər Əliyev təsdiq etmişdir. Sovet İttifaqının saxlanmasına dair referendumun Naxçıvanda keçirilməsinə imkan verməmişdir, baxmayaraq ki, Azərbaycanın bütün başqa yerlərində bu referendum keçirilmişdir. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişdirmiş və "Sovet Sosialist" sözlərini oradan çıxarmışdır. Yəni, əlbəttə, xalq yaxşı bilirdi ki, Heydər Əliyev güclü liderdir, Vətənə bağlı olan insandır və məhz belə bir insan Azərbaycana rəhbərlik etməlidir.

1993-cü il tariximizdə dönüş nöqtəsi olmuşdur. Əslində, bizim müstəqil tariximiz o ildən başlamışdır. Çünki 1991-1993-cü illərdə müstəqillik formal, şərti xarakter daşıyırdı. Azərbaycan demək olar ki, xaricdən idarə olunurdu. Biz hamımız bunu yaxşı bilirik. Ona görə Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyevi Azərbaycanın dövlət müstəqilliyinin banisi, Azərbaycan dövlətinin qurucusu kimi tanıyır və bu, tarixi həqiqətdir.

Bu çətin şəraitdə Heydər Əliyev Azərbaycanı o ağır vəziyyətdən çıxara bilmişdir, inkişaf yoluna qoya bilmişdir. 1993-cü ildən başlayaraq bu günə qədər Azərbaycan, sözün əsl mənasında, müstəqil həyat yaşayır. Dövlətçiliyin əsasları qoyuldu, müstəqil dövlətin Konstitusiyası qəbul edildi, milli ideologiyamız qəbul olundu, azərbaycançılıq məfkurəsi bu gün bizim ideoloji əsaslarımızı təşkil edir. Siyasi islahatlar aparılmağa başlamışdır, demokratik inkişafla bağlı önəmli qərarlar, qanunlar qəbul edilmişdir. İqtisadi sahədə liberallaşma siyasəti aparılmağa başlamışdır və bazar iqtisadiyyatına keçid məhz Heydər Əliyevin təşəbbüsü ilə baş vermişdir.

Beynəlxalq təcridə son qoyulmuş, Azərbaycan dünyanın aparıcı ölkələri ilə konstruktiv münasibətlər qura bilmişdir. Qonşu dövlətlərlə münasibətlər normallaşdı. Çünki bu, bir absurd vəziyyət idi ki, 1993-cü ilə qədər Azərbaycan, demək olar, bütün qonşu dövlətlərlə çox gərgin münasibətlər şəraitində yaşayırdı. Qonşu dövlətlərlə, böyük dövlətlərlə münasibətlərin qurulması Heydər Əliyevin tarixi xidmətlərindən biridir. Ciddi iqtisadi islahatların nəticəsi olaraq Azərbaycana böyük sərmayə axını müşahidə edilməyə başlamışdır. "Əsrin kontraktı" imzalanmışdır ki, bu, iqtisadi müstəqilliyimizi şərtləndirən əsas amil olmuşdur. Hamımız yaxşı bilirik ki, iqtisadi müstəqillik olmadan siyasi müstəqillikdən söhbət gedə bilməz. Ordu quruculuğunda böyük addımlar atılmışdır. Azərbaycanda nizami ordu yaradıldı. Bir sözlə, 1993-cü ildən başlayaraq Azərbaycan inkişaf yolu ilə inamla gedir və bu gün bu inkişaf davam edir.

2003-cü ildən sonra Azərbaycanın dinamik inkişafı təmin edilmişdir. Biz güclü, qüdrətli dövlət qura bilmişik. Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan ölkədir. Bu gün dünya xəritəsində belə ölkələrin sayı o qədər də çox deyil. Xüsusilə biz ərazisi, əhalisi o qədər də böyük olmayan ölkələrə fikir versək görərik ki, müstəqil siyasət aparmaq iqtidarında olan ölkələr o qədər də çox deyil. Biz tam müstəqil siyasət aparırıq. Bizim siyasətimiz milli maraqlar üzərində qurulubdur. Azərbaycan xalqının maraqları bizim siyasətimizin mənbəyidir, onun əsasıdır. Kənardan bizim siyasətimizə təsir etmə imkanları sıfıra bərabərdir. Bunu yaxın tarix göstərib. İndi deyə bilərəm ki, belə cəhdlər də yoxdur. Ona görə ki, biz prinsipial siyasət aparırıq. Bu siyasət Azərbaycan xalqı tərəfindən dəstəklənir və müdafiə olunur. Xalq-iqtidar vəhdəti bizim uğurlarımızın əsas səbəbidir.

Azərbaycan bu gün beynəlxalq arenada öz mövqelərini gücləndirir, beynəlxalq aləmdə çox böyük nüfuza malik olan bir ölkədir. Bizimlə əməkdaşlıq edən ölkələrin sayı getdikcə artır. Biz dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına iki dəfə sədrlik etmişik. Gələn il biz BMT-dən sonra ikinci böyük təşkilata – Qoşulmama Hərəkatına sədrlik etməyə başlayacağıq. Biz bütün digər aparıcı beynəlxalq təşkilatlarla çox sıx əməkdaşlıq edirik. Bəzi təşkilatların üzvüyük, bəzi təşkilatlarla əməkdaşlıq çərçivəsində fəaliyyət göstəririk. Dünya birliyi Azərbaycana böyük hörmətlə, böyük rəğbətlə yanaşır. Bu gün dünyanın siyasi xəritəsində Azərbaycanın yeri çox möhkəmdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son illər ərzində apardığımız işlər münaqişənin həlli üçün hüquqi bazanı daha da genişləndirmişdir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi və ATƏT-in qərarları, əlbəttə, bu hüquqi bazanın əsasını təşkil edir. Həmçinin 2003-cü ildən bu günə qədər digər beynəlxalq təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişlər. Onların arasında Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, GUAM, ECO və digər təşkilatlar var. Bu, münaqişənin həlli üçün hüquqi bazanın yaradılması deməkdir. Biz münaqişənin həlli üçün iqtisadi zəmin də yaratmışıq, güclü ordu formalaşdırmışıq. Görülən kompleks tədbirlər nəticəsində Azərbaycan bu məsələ ilə bağlı siyasi və diplomatik üstünlüyü tam təmin edibdir. Məhz bunun nəticəsidir ki, nə qədər dünya erməniliyi çalışsa da, heç bir dövlət qanunsuz Dağlıq Qarabağ rejimini tanımayıb.

Biz yaxşı bilirik ki, bu gün beynəlxalq hüququn normaları bir çox hallarda pozulur, işləmir. Güc amili ön plana çıxır və bu, reallıqdır. Ona görə dünya birliyinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqeyimizi dəstəkləməsi böyük nailiyyətimizdir. Hesab edirəm ki, beynəlxalq hüququn normalarından başqa, burada güclü Azərbaycan amili dayanır. Biz güclü dövlət qura bilmişik. Bir daha demək istəyirəm ki, bizimlə əməkdaşlıq edən və etmək istəyən ölkələrin sayı artır. Bizə hörmət artır, bizim işimizə göstərilən rəğbət göz qabağındadır. Belə bir vəziyyətdə heç bir ölkə qanunsuz rejimlə heç bir əlaqə qura bilməz və biz buna heç vaxt imkan verməyəcəyik. Biz heç vaxt imkan verməyəcəyik ki, tarixi torpağımızda ikinci erməni dövləti yaradılsın. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin bir yolu var, o da Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyünün bərpasıdır.

Biz güclü ordu yaratmışıq. 1918-ci ildə Azərbaycan Ordusunun yaradılması haqqında qərar veriləndə yəqin ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları heç təsəvvür edə bilməzdilər ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında olacaq. Bizim ordumuzun həm maddi-texniki təchizatı, həm də döyüş qabiliyyəti ən yüksək səviyyədədir. Biz bunu döyüş meydanında sübut edə bilmişik. Azərbaycan Ordusu işğal altında olan torpaqların bir hissəsini iki il bundan əvvəl işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi. Azad edilmiş o torpaqlara Azərbaycan vətəndaşları qayıtmışlar. O torpaqlara həyat qayıtmışdır və bunu Azərbaycan dövləti etdi, Azərbaycan Ordusu etdi.

Güclü ordu müstəqilliyimizin əsasıdır, təhlükəsizliyimizin qarantıdır. Azərbaycanda təhlükəsizlik tam təmin edilibdir. Azərbaycan bu gün müstəqil ölkə kimi dünya miqyasında ən sabit ölkələrdən biridir. Biz güclü iqtisadiyyat yaratmışıq. Biz təbii resurslarımızdan çox böyük səmərə ilə istifadə etmişik və iqtisadi müstəqillik siyasi müstəqilliyimizin əsas amilidir. İqtisadi müstəqillik olmadan siyasi müstəqillikdən söhbət gedə bilməz. Güclü iqtisadi əsaslar gələcəkdə də imkan verəcək ki, Azərbaycan heç kimdən asılı olmayaraq uğurla inkişaf etsin.

Son 15 il ərzində iqtisadi inkişafımız dünya miqyasında rekord səviyyədədir - Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artmışdır və bu, dünya miqyasında analoqu olmayan inkişafdır. Biz böyük valyuta ehtiyatlarımızı yaratmışıq. Bizim valyuta ehtiyatlarımız ümumi daxili məhsulumuza bərabər səviyyədədir. Bizim xarici borcumuz o səviyyədədir ki, ehtiyatlarımız xarici borcumuzu 4-5 dəfə üstələyir. Yəni, əgər dünyanın iqtisadi xəritəsinə baxsaq görərik ki, belə göstəricilər çox nadir hallarda baş verir. Bunu biz özümüz yaratmışıq, heç bir yerdən kömək, yardım almadan, düşünülmüş siyasət, atılan düzgün addımlar nəticəsində. Bu gün Azərbaycan iqtisadi cəhətdən tam müstəqil dövlətdir, heç kimdən asılı deyil və məhz buna görə də inamla öz müstəqil siyasətini aparır.

Bizim iqtisadi uğurlarımız mötəbər beynəlxalq iqtisadi qurumlar tərəfindən də yüksək qiymətləndirilir. Rəqabətqabiliyyətliliyə

Davamı səh. 4

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 100 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBUL TƏŞKİL OLUNUB

## Prezident İlham Əliyev rəsmi qəbulda iştirak edib




Əvvəli səh. 3

görə Azərbaycan dünya miqyasında 35-ci yerdədir, inkişafda olan ölkələr arasında inkişafa görə üçüncü yerdədir. Bunu biz demirik, bunu dünyanın birinci iqtisadi forumu olan Davos İqtisadi Forumu deyir.

Yəni, bu güclü iqtisadiyyat imkan verir ki, biz Azərbaycanda istənilən sosial layihəni, infrastruktur layihələrini icra edək və edirik. Azərbaycan sosial dövlətdir. Sosial sahəyə ayrılan diqqət imkan verir ki, bir çox sosial problemlər öz həllini tapsın, o cümlədən sosial infrastrukturla bağlı olan layihələr. Son 15 il ərzində 3 mindən çox məktəb, 600-dən çox tibb ocağı, 40-dan çox Olimpiya mərkəzi tikilib. Bütün bunların təməlində həm bizim siyasətimiz, həm də iqtisadi gücümüz dayanır. Biz təbii resurslarımızı - nefti insan kapitalına çevirmişik. Bu istiqamətdə işlər davam edir və davam edəcəkdir. Biz ölkəmizin müstəqilliyini gücləndirən güclü infrastruktur yaratmışıq. O infrastruktur ki, bundan sonra onilliklər ərzində Azərbaycan xalqına xidmət edəcək. Demək olar ki, bütün əsas infrastruktur layihələrini sıfırdan yaratmışıq.

Biz dənizləri neft–qaz kəmərləri ilə birləşdirdik. Tarixdə ilk dəfə olaraq Xəzər dənizi Qara dənizlə, Aralıq dənizi ilə neft kəmərləri vasitəsilə birləşdi. Bizim təşəbbüsümüzlə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Supsa neft və qaz kəmərləri inşa edildi.

Enerji təhlükəsizliyi baxımından Azərbaycan nəinki regionda, dünya miqyasında önəmli ölkəyə çevrildi. Hazırda Cənub Qaz Dəhlizinin icrası ilə bağlı böyük işlər görülür və sabah Cənub Qaz Dəhlizinin rəsmi açılışı olacaqdır. Bu da böyük tarixi qələbəmizdir.

Biz nəqliyyat infrastrukturunu yaratmaqla qitələri birləşdirdik. Açıq dənizlərə çıxışı olmayan Azərbaycan bu gün dünyanın nəqliyyat mərkəzlərindən birinə çevrilir. Təşəbbüskarı olduğumuz Bakı-Tbilisi-Qars dəmir yolu, nəqliyyat infrastrukturu ilə bağlı digər layihələr, Xəzərin ən böyük limanı olan Ələt Limanının işə düşməsi, "Şimal-Cənub" nəqliyyat dəhlizinin yaradılması istiqamətində atılmış addımlar bir məqsədi güdür ki, Azərbaycanı dünyanın nəqliyyat mərkəzlərindən birinə çevirək. Bu istiqamətdə böyük işlər görüldü. Bu, müstəqilliyi gücləndirən amildir. Bu, qeyri-neft sektorunu inkişaf etdirən amildir. Biz bu məsələ ilə bağlı çox ciddi məşğuluq. Gec-tez bizim təbii resurslarımız tükənəcək. Baxmayaraq ki, "Azəri-Çıraq-Günəşli" kontraktının müddəti 2050-ci ilə qədər uzadıldı. Ən azı o vaxta qədər bu kontrakt qüvvədə olacaq. Mən tam əminəm ki, 2050-ci ildən sonra da kifayət qədər neft ehtiyatları "Azəri-Çıraq-Günəşli"də qalacaq.

O ki qaldı, bizim təbii qaz resurslarımıza, bu resurslar ən azı 100 il bundan sonra bizə və bizdən bu əməkdaşlıq nəticəsində faydalanan ölkələrə kifayət edəcəkdir. Amma buna baxmayaraq, biz yenə də qabağa baxmalıyıq. Biz ölkəmizin uzunmüddətli, dayanıqlı inkişaf strategiyasını təmin etməliyik. Bu məsələ ilə bağlı bizim çox aydın fikirlərimiz, baxışlarımız var.

Hesab edirəm ki, müstəqil dövlət kimi Azərbaycan humanitar sahədə tarixi nailiyyətlərə imza atdı. Bu gün Azərbaycan dünyada multikulturalizmin mərkəzlərindən biri kimi tanınır. O şəraitdə ki, bu yanaşmaya indi dünyada o qədər də isti münasibət göstərilmir. Ancaq buna baxmayaraq, biz öz yolumuzla gedirik. Tam əminik ki, biz düzgün yoldayıq. Çünki bizim nümunəmiz, bizim gördüyümüz işlər dinlərarası, millətlərarası dialoqun güclənməsinə gətirib çıxarır və nəticə etibarilə sabitliyə, təhlükəsizliyə xidmət göstərir.

Heç kim təsəvvür edə bilməzdi ki, Azərbaycan idman sahəsində dünyanın aparıcı ölkələrinin sırasında olacaqdır. Biz buna nail ola bilmişik. Sovet dövründə əgər bizim hansısa bir idmançımız Avropa, ya dünya çempionatında yüksək yer tuturdusa, biz bunu böyük bir tarixi hadisə kimi qəbul edirdik. Bu gün bizim idmançılarımız Avropa, dünya çempionatlarında, Olimpiya Oyunlarında yüzlərlə medal qazanmışlar. Son Olimpiya Oyunlarında medalların sayına görə Azərbaycan dünya miqyasında 14-cü yerdədir. Təsəvvür edin, 200-ə yaxın ölkənin iştirak etdiyi bu Oyunlarda 14-cü olmaq nə qədər böyük nailiyyətdir. Bu, nəyin nəticəsidir? Görülən işlərin, aparılan düzgün siyasətin, xalqımızın istedadının, xalqla iqtidar arasında birliyin nəticəsidir. Bu gün hansı sahəyə baxsan inkişaf var, tərəqqi var və gələcək dinamik inkişaf üçün aydın baxışlar var. Bu gün müstəqil Azərbaycan hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının arzularını reallığa çevirdik. Biz elə bir dövlət qurduq ki, əminəm, hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı bu dövlətlə fəxr edir. Mən tam əminəm ki, əgər Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları bugünkü Azərbaycanı görə bilsəydilər, onlar da ölkəmizlə fəxr edərdilər.

Azərbaycanın zəngin təbii resursları vardır və baxmayaraq ki, onların böyük hissəsi tükənib, ancaq yenə də var. Azərbaycan o diyardır ki, dünyada ilk dəfə sənaye üsulu ilə neft 1846-cı ildə məhz Azərbaycanda hasil edilmişdir. O hadisəni əks etdirən abidə də qoyulub. O vaxt dünya neftinin böyük hissəsini onilliklər ərzində Azərbaycan təmin edirdi. Ancaq Azərbaycan xalqı bu təbii resurslardan faydalana bilibmi? Yox. Baxın, biz hansı vəziyyətdə idik. Biz bu gün Xalq Cümhuriyyətinin 100 illiyini qeyd edirik. Baxın, o vaxta qədər və o vaxt bizim ölkəmiz hansı vəziyyətdə idi. Yoxsulluq, səfalət, savadsızlıq, tamamilə dağılmış tarixi şəhərlərimiz. Nəyə görə? Çünki Azərbaycan müstəqil deyildi. Sovet dövründə, İkinci Dünya müharibəsi zamanı Azərbaycan nefti olmasaydı, Sovet İttifaqı faşizm üzərində Qələbəni əldə edə bilməzdi. Bunu hamı bilməlidir. Biz Qələbəyə həlledici töhfə vermişik. O vaxt Azərbaycan xalqı, Azərbaycan zəhmətkeşləri, neftçiləri, Azərbaycan nefti ümumittifaq büdcəsinə xidmət göstərirdi. Heydər Əliyev 1969-cu ildə Azərbaycanda rəhbərliyə gələnə qədər Azərbaycan bütün bu sərvətlərə baxmayaraq, Sovet İttifaqında ən axırıncı yerdə idi. Nəyə görə? Çünki müstəqil deyildik. Taleyimiz əlimizdə deyildi.

1970-ci illərdə Heydər Əliyevin yorulmaz səyləri nəticəsində Azərbaycan çox böyük dərəcədə inkişaf etmişdir. Ancaq yenə də müstəqil deyildi. Müstəqilliyin ilk illərində xalqımızın başına gələn bəlalar, işğal, vətəndaş müharibəsi, AXC-Müsavat cütlüyünün yarıtmaz fəaliyyəti demək olar ki, ölkəmizi məhv etmişdi. Ancaq biz dirçəldik. Nəyə görə? Məhz müstəqilliyə görə. Ona görə ki, bizim taleyimiz indi bizim əlimizdədir. Bizim gələcəyimiz etibarlı əllərdədir.

Bugünkü Azərbaycan bir daha göstərir ki, müstəqillik ən böyük sərvətimizdir. Bu, həqiqətən də belədir. Müstəqillik ən böyük sərvətimizdir, ən böyük nemətimizdir, ən böyük xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir.

* * *

Rəsmi qəbul konsert proqramı ilə davam edib.

AZƏRBAYCAN RESPUBLİKASI
DİNİ QURUMLARLA İŞ ÜZRƏ
DÖVLƏT KOMİTƏSİ

1918 100 2018

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ
## DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ

***Mayın 24-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Azərbaycan Xalq Cümhuriyyəti-100 il: dövlət-din münasibətləri" mövzusunda konfrans keçirilib. Konfrans çərçivəsində DQİDK tərəfindən "Azərbaycan Xalq Cümhuriyyəti: dövlət-din münasibətləri" mövzusunda kitabın təqdimatı da olub.***

Konfransda çıxış edən DQİDK-nın sədri Mübariz Qurbanlı Azərbaycan Xalq Cümhuriyyətinin tarixi və fəaliyyəti haqqında danışıb. Ölkəmizdə mühüm bir hadisənin qeyd edildiyini bildirən Dövlət Komitəsinin sədri qeyd edib ki, Ulu Öndər Heydər Əliyev Xalq Cümhuriyyətinin tarixinin tədqiq olunması ilə əlaqədar müvafiq tövsiyələr verib. Bunun əsasında Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu çox dəyərli, sanballı tədqiqat işləri ortaya qoyub. Mübariz Qurbanlı, eyni zamanda Ulu Öndərin iştirakı ilə Xalq Cümhuriyyətinin 80 illik yubileyi ilə əlaqədar Milli Məclisdə böyük dinləmələr keçirildiyini və Ümummilli Liderin öz çıxışlarında Xalq Cümhuriyyətinə və onun fəaliyyətinə yüksək dəyər verdiyini qeyd edib.

Komitə sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də Ulu Öndərimiz kimi AXC-nin xalqımızın dövlətçilik tarixində oynadığı əhəmiyyətli rola hər zaman diqqətlə yanaşdığını diqqətə çatdırıb. O, dövlət başçısının "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" və 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi ilə əlaqədar imzaladığı sərəncamların ictimai-siyasi, elmi-tarixi mahiyyətinin xüsusilə əhəmiyyətli olduğunu qeyd edib.

Vurğulanıb ki, dövlətçilik tariximizdə mühüm rol oynayan AXC dövründə baş verən ictimai-siyasi hadisələr, maarifçilik hərəkatının genişlənməsi, cəhalət və mövhumata qarşı mübarizə məqsədilə atılan addımlar milli ideologiyamızın zənginləşməsinə mühüm töhfə olub. Müsəlman Şərqində ilk demokratik, hüquqi, dünyəvi dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi azərbaycanlıların, ilk növbədə, yüksək milli ideyaya və yenilikçi düşüncə tərzinə malik olmasının bariz göstəricisidir. İlklərə imza atan Xalq Cümhuriyyəti ölkədə dini sahənin inkişafına da xüsusi qayğı ilə yanaşaraq, dövlətlə dindar kontingent arasında münasibətlərin yüksək səviyyədə nizamlanması istiqamətində mühüm tədbirlər həyata keçirib. Cəmi 23 ay yaşamasına baxmayaraq, xalqın vicdan azadlığının təmin edilməsi məqsədilə mütərəqqi addımlar atılıb.

Konfransda DQİDK tərəfindən "Azərbaycan Xalq Cümhuriyyəti: dövlət-din münasibətləri" mövzusunda nəşr etdirilən kitabın təqdim edildiyini diqqətə çatdıran Mübariz Qurbanlı nəşrdə AXC dövründə din sahəsində aparılan siyasət, həyata keçirilən tədbirlər haqqında dolğun məlumatların yer aldığını bildirib.

Daha sonra çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin böyük məsləhətçisi Ceyhun Məmmədov bildirib ki, Azərbaycanda mövcud olan dini azadlıq, tolerantlıq və multikulturalizm mühiti ölkəmizin milli sərvətidir. Qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyətinin ölkəmizin dövlətçilik tarixində mühüm rolu sonrakı dövrlərdə baş vermiş proseslər üçün əsas zəmin və siyasi-hüquqi miras yaradıb.

O deyib ki, AXC qısa müddətdə hakimiyyətdə olsa da, həmin dövr ölkəmizdə mühüm hadisələrlə yadda qalıb. Ulu Öndər Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra Xalq Cümhuriyyətinin tarixinin öyrənilməsi istiqamətində çox böyük addımlar atılıb. Xüsusilə, 1998-ci ildə AXC-nin 80 illik yubileyinin keçirilməsi və ona həsr edilən əsərlərin nəşr edilməsi haqqında sərəncamlar bu tarixin öyrənilməsində, tədqiqində mühüm rol oynayıb. Hazırda bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyən C.Məmmədov "Azərbaycan Xalq Cümhuriyyəti İli" çərçivəsində ölkəmizdə və xaricdə çoxsaylı tədbirlərin keçirildiyini diqqətə çatdırıb. O, həmin dövrdə tolerantlıq ənənələrinin qorunmasına, dini sahəyə diqqətin dövlətimiz tərəfindən bu gün uğurla davam etdirildiyini vurğulayıb.




"Azərbaycan Xalq Cümhuriyyəti: dövlət-din münasibətləri" kitabının elmi redaktoru, tarix elmləri doktoru, professor Qabil Əliyev bildirib ki, AXC-nin 100 illiyinin qeyd olunması ölkəmizdə azərbaycançılıq təfəkkürünün möhkəmlənməsinə və zənginləşdirilməsinə xidmət edir. O, mürəkkəb daxili və xarici vəziyyətdə yaranan Xalq Cümhuriyyətinin köklü islahatlara imza atdığını, bir çox sahələr kimi, dini sahədə də nailiyyətlər əldə etdiyini deyib. Vurğulayıb ki, AXC haqqında çoxsaylı tədqiqatlar aparılsa da, dövlət-din münasibətləri barədə tədqiqatlara ehtiyac yaranıb. Dövlət Komitəsinin əməkdaşları tərəfindən sözügedən mövzuya aid sanballı əsər ərsəyə gətirilib. Q.Əliyev kitabın dövlət-din münasibətləri haqqında ensiklopedik məlumat xarakteri daşıdığını deyib.

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun icraçı direktoru Oktay Səmədov rəhbərlik etdiyi qurumun "Azərbaycan Xalq Cümhuriyyəti İli"ndə həyata keçirdiyi çoxsaylı tədbirlər barədə məlumat verib. AXC-nin yaradılmasında görkəmli şəxslərin özünəməxsus yeri olduğunu xatırladan O.Səmədov ölkənin şanlı tarixi barədə gənclərin ətraflı biliklər almasının vacibliyinə toxunub, Vətənə sevgi, dövlətə sədaqət, xalqa hörmət hissinin gənc nəslə aşılanmasının vacibliyini vurğulayıb.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktor əvəzi Rəvan Həsənov çıxışında Azərbaycan Xalq Cümhuriyyətinin ilk xarici siyasət addımları, qısa zaman ərzində gördüyü böyük işlər haqqında məlumat verib. Qeyd edib ki, Cümhuriyyət dövründə müstəqilliyin ən qiymətli nemət olduğunu anlayan xalqımız Azərbaycanın gələcəkdə əbədi müstəqilliyinə qovuşacağına inanırdı. Bu inamın özünü doğrultması nəticəsində Azərbaycanın dövlət müstəqilliyi elan olunub. Məhz Heydər Əliyevin rəhbərliyi və uzaqgörən siyasəti ilə Azərbaycanın dövlət müstəqilliyi möhkəmləndirilib.

Roma Katolik kilsəsinin Azərbaycandakı apostol prefekturasının yepiskopu Vladimir Fekete, Avropa yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski, Rus-Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Dionisi Svečnikov çıxışlarında bildiriblər ki, AXC dövründə hər kəsin istədiyi dinin qaydalarına riayət etmək, dini mənsubiyyətini dəyişmək, dini təşkilatların işində sərbəst iştirak etmək, habelə heç bir dini qəbul etməmək, dindarların heysiyyətinə toxunmamaq prinsipi əsas götürülüb. O dövrdən miras qalan Azərbaycan tolerantlıq ənənələrinin nəticəsidir ki, bu gün Azərbaycan tolerantlığın və konfessiyalararası dialoqun inkişafındakı xüsusi xidmətləri olan ölkədir.

"Azərbaycan Xalq Cümhuriyyəti: dövlət-din münasibətləri" kitabının həmmüəllifi, DQİDK-nın Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova çıxışında kitabın ərsəyə gəlməsi barədə danışıb. O, Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı tədqiqatların aparıldığını, lakin o dövrə aid dövlət-din münasibətləri haqqında nəşrlərin az sayda olduğunu diqqətə çatdırıb. Bildirib ki, bu nəşrin hazırlanmasının əsas məqsədi mövzu barədə məlumatların sistemli şəkildə təqdim edilməsidir. Kitabın 3 fəsildən ibarət olduğunu qeyd edən şöbə müdiri nəşrin AXC dövründə dövlətin həyata keçirdiyi din siyasəti, müvafiq sahənin qurumları, din xadimləri ilə bağlı mühüm məqamları ehtiva etdiyini diqqətə çatdırıb.

# MÜBARİZ QURBANLININ BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ ABŞ-DA RƏSMİ SƏFƏRDƏ OLUB

*San-Fransiskoda erməni lobbisi tədbirin qarşısını almağa çalışsa da, növbəti dəfə iflasa uğrayıb*

## Los-Ancelesdə

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlının başçılıq etdiyi nümayəndə heyəti Amerika Yəhudi Komitəsinin dəvəti ilə 13-19 may tarixlərində Amerika Birləşmiş Ştatlarında rəsmi səfərdə olub.***



Azərbaycandakı dini konfessiya təmsilçiləri – Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev, Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Mefodi Əfəndiyev, Bakı şəhəri Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Avropa Yəhudiləri dini icmasının sədri Aleksandr Şarovski, eləcə də DQİDK-nın Xarici əlaqələr şöbəsinin müdiri Nicat Məmmədlidən ibarət Azərbaycan nümayəndə heyəti mayın 14-də ABŞ Katolik Kilsəsinin rəhbərlərindən biri, ABŞ Yepiskoplar Konfransının vitse-prezidenti, Los-Anceles arxiyepiskopu Xose Horasiyo Qomezlə görüşüb. Los-Ancelesin ən böyük və müasir üslubda tikilmiş kafedral kilsəsində baş tutan görüş zamanı DQİDK-nın sədri Mübariz Qurbanlı arxiyepiskopa Azərbaycandakı tolerant və multikultural mühit barədə məlumat verib. Bildirib ki, tolerantlığın ölkəmizdə çox möhkəm təməl sütunları, zəngin ənənələri, dərin tarixi-mədəni kökləri mövcuddur. Fərqli dini konfessiya nümayəndələri hər zaman Azərbaycan xalqı ilə həmrəy olub, bütün tarixi dövrlərdə etnik və dini icmalar arasında möhkəm dözümlülük əlaqələri mövcud olub, milli, dini, eləcə də irqi zəmində heç bir ayrı-seçkilik faktı qeydə alınmayıb. Dövlət Komitəsinin sədri ölkəmizdə İslam dini ilə yanaşı, Xristianlıq, Yəhudilik dininə mənsub insanların qarşılıqlı anlaşma, mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşadıqlarını diqqətə çatdırıb. Daha sonra dini icmaların liderləri Azərbaycandakı dini tolerantlıq və dialoq mühiti barədə arxiyepiskopla fikir mübadiləsi apardılar.



***Həmin gün Azərbaycan nümayəndə heyəti Los-Ancelesdə fəaliyyət göstərən və ABŞ yəhudilərinin ən nüfuzlu dini mərkəzlərindən olan Sinay Sinaqoqunda Azərbaycanın multikulturalizm və dini tolerantlıq ənənələrinə həsr olunmuş geniş tədbirdə iştirak edib.***

Baş konsulluğun və Amerika Yəhudi Komitəsinin birgə təşkilatçılığı ilə keçirilmiş tədbirdə 300-dək qonaq, o cümlədən xarici ölkələrin Los-Ancelesdə akkreditə olunmuş baş konsulları, yerli yəhudi icmasının nüfuzlu təmsilçiləri, müxtəlif dinləri təmsil edən din xadimləri, seçkili orqanların üzvləri, eləcə də bir çox icmaların nümayəndələri, ictimai-siyasi xadimlər və jurnalistlər iştirak ediblər.

Tədbirin açılışında Sinay Sinaqoqunun kantoru Liza Peykot tərəfindən Azərbaycan himninin ifası rəğbətlə qarşılanıb.

Sinaqoqun ravvini Erez Şerman belə bir əlamətdar tədbirə ev sahibliyi etməkdən məmnunluq duyduqlarını ifadə edib. O, 2015-ci ildə sinaqoqun böyük nümayəndə heyətinin Azərbaycana səfərini qeyd edərək, Azərbaycandakı dinlərarası tolerantlığın bütün qonaqlara yüksək təsir bağışladığını vurğulayıb.

Sonra çıxış edən Amerika Yəhudi Komitəsinin (AYK) Los-Anceles nümayəndəliyinin sədri Skot Edelman Azərbaycanın bütün müsəlman dünyasında oynadığı nümunəvi rolu xüsusi vurğulayaraq, AYK ilə Azərbaycan arasında qurulmuş sıx dostluq əlaqələrinə yüksək önəm verdiklərini bildirib. S.Edelman ölkəmizdə müxtəlif dinlərin və xalqların dinc birgəyaşayışının, eləcə də uzun əsrlərdən bəri Azərbaycanda mövcud olan yəhudi icmasına göstərilən münasibətin yüksək səviyyədə olmasının Amerika yəhudiləri arasında böyük rəğbət doğurduğunu vurğulayıb.

DQİDK-nın sədri Mübariz Qurbanlı tədbirdə çıxış edərək tolerantlığın ölkəmizdə çox möhkəm təməl sütunlarının, zəngin ənənələrinin mövcud olduğunu qeyd edib. 31-i qeyri-islam olmaqla, 809 dini icmanın dövlət qeydiyyatına alındığını vurğulayan M.Qurbanlı ölkəmizdə İslam dini ilə yanaşı, digər dinlərə mənsub insanların qarşılıqlı anlaşma, mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşadıqlarını diqqətə çatdırıb. O bildirib ki, məhz bu ənənələrin daha geniş təbliği üçün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2016-cı il ölkəmizdə "Multikulturalizm İli", 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan edilib və bu illər çərçivəsində DQİDK və Qafqaz Müsəlmanları İdarəsi həm müsəlman, həm də qeyri-müsəlman ölkələrində bir sıra birgə tədbirlər həyata keçirib. DQİDK sədri, xüsusilə bu istiqamətdə Heydər Əliyev Fondunun həyata keçirdiyi çoxşaxəli və geniş proqramlardan söz açıb. Qeyd edib ki, bu proses bu il də davam etdirilir. Belə ki, xüsusi olaraq Dinlər və Mədəniyyətlərarası Əməkdaşlıq Mərkəzi yaradılıb və bu Mərkəz vasitəsilə qarşıdakı müddətdə Almaniya, İspaniya və Azərbaycanda müvafiq tədbirlər keçiriləcək.

Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev çıxışında ölkəmizdə mövcud olan zəngin tolerantlıq irsindən bəhs edərək, qədim dövrlərdən bəri Azərbaycanda bütün xalqlar və dinlər arasında mehriban qardaşlıq əlaqələrinin hökm sürdüyünü qeyd edib. Diplomat Sinay Sinaqoqu və Amerika Yəhudi Komitəsi ilə Los-Ancelesdə yaradılmış möhkəm dostluq münasibətlərinin ölkəmiz üçün yüksək önəm daşıdığını və bunun Azərbaycanın dinlərarası tolerantlıq modelinin ABŞ-da təbliği işinə yüksək töhfə verdiyini bildirib.

Sonra çıxış edən Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev, Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili və Rus Pravoslav Kilsəsinin Bakı Yeparxiyasının nümayəndəsi Elnur Əfəndiyev Azərbaycanın tarixi tolerantlıq və multikulturalizm ənənələrindən danışaraq, bu ənənələrin artıq ölkəmizdə dövlət siyasəti səviyyəsinə yüksəldildiyini vurğulayıblar. Natiqlər Azərbaycanda uzun əsrlərdən bəri dini və etnik mənsubiyyətindən asılı olmayaraq hər kəsin sülh, qardaşlıq və əmin-amanlıq şəraitində birgə yaşadığını diqqətə çatdırıblar.

Sonra tədbir iştirakçıları və media nümayəndələrini maraqlandıran suallar cavablandırılıb. Müxtəlif media qurumlarını təmsil edən jurnalistlər Azərbaycan tolerantlığı barədə geniş bilgilər əldə ediblər.

Çıxışlardan sonra Azərbaycanın multikulturalizm ənənələrindən bəhs edən, DQİDK tərəfindən çəkilmiş qısa film nümayiş etdirilib. Los-Ancelesdə fəaliyyət göstərən pianoçu Ceyson Abramsın ifasında Azərbaycan musiqisi təqdim olunub.

Sonda təbdir iştirakçıları Azərbaycanın multikulturalizm və tolerantlıq ənənələrinə həsr olunmuş fotosərgi ilə tanış olublar.

***Mayın 15-də nümayəndə heyəti Los-Anceles vilayətinin Nəzarətçilər Şurasının sədri Şeyla Kuehl ilə görüşüb.*** Xanım Kuehl 2008-ci ildə hələ Kaliforniyanın Ştat Senatoru kimi ölkəmizə səfər etdiyini və Azərbaycandan xoş təəssüratlarla ayrıldığını bildirib. Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Los-Anceles vilayətinin Nəzarətçilər Şurasının sədrinə Azərbaycanda dinə dövlət qayğısından bəhs edib. Bildirib ki, dini ənənələrə və mədəniyyətə malik olan Azərbaycan bu gün dini əmin-amanlığa və sabitliyə töhfə verən örnəkdir. Bunun əsası Ümummilli Lider Heydər Əliyevin müdrik siyasəti sayəsində qoyulub. 2016-cı ilin ölkəmizdə Prezident İlham Əliyev tərəfindən "Multikulturalizm İli", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan edildiyini diqqətə çatdıran Komitə sədri vətəndaşlarının böyük əksəriyyətini müsəlmanlar təşkil edən ölkəmizdə digər dinlərə də xüsusi qayğı göstərildiyini qeyd edib. O, Azərbaycanda 2250 məscid, 14 kilsə və 7 sinaqoqun fəaliyyət göstərdiyini bildirib.

Nümayəndə heyəti Los-Ancelesdə nəşr olunan ABŞ-ın ən böyük oxucu kütləsinə malik "Jewish Journal" qəzetinin prezidenti Devid Suisa ilə də görüşüb. Görüş zamanı Azərbaycanda mövcud olan multikulturalizm ənənələri, dinlərarası tolerantlıq və harmoniya haqqında ətraflı məlumat verilib. Görüşdə, eyni zamanda ölkəmizdə dini və milli mənsubiyyətindən asılı olmayaraq hər kəsin bərabər hüquqlara malik olduğu və sülh şəraitində dinc yanaşı



Davamı səh. 7

Əvvəli səh. 6

yaşadığı, insanların öz etiqadlarını, adət-ənənələrini sərbəst şəkildə həyata keçirdikləri və bu unikal tolerantlıq mühitinin Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən siyasəti sayəsində gündən-günə daha da gücləndiyi diqqətə çatdırılıb. Görüşlərdə iştirakçılara Azərbaycanda dini tolerantlıq mühitini, həmçinin Dağlıq Qarabağ həqiqətlərini əks etdirən kitablar təqdim olunub.

## San-Fransiskoda

***Azərbaycan nümayəndə heyətinin ABŞ-ın Kaliforniya ştatına səfər çərçivəsində növbəti tədbir mayın 17-də San-Fransisko şəhərində olub.*** ABŞ-ın ən qədim qurumlarından olan "Commonwealth Club" təşkilatında Azərbaycanın multikulturalizm, dinlərarası harmoniya və dini tolerantlıq ənənələrinə həsr olunmuş tədbir Azərbaycanın Los-Ancelesdəki baş konsulluğunun, San-Fransiskoda və ətraf rayonlarda fəaliyyət göstərən dini komitələrin, şuraların, icmaların təşkilatçılığı ilə keçirilib.



Tanınmış din xadimlərinin, bir çox icmaların nümayəndələrinin, ictimai-siyasi xadimlərin və jurnalistlərin iştirak etdikləri tədbirdə DQİDK tərəfindən hazırlanmış Azərbaycanın multikulturalizm ənənələrindən bəhs edən videofilm nümayiş etdirilib. Tədbir iştirakçıları, həmçinin Azərbaycanın multikulturalizm və tolerantlıq ənənələri ilə bağlı fotosərgi ilə tanış olublar.

Əvvəlcə tədbirin təşkilatçıları salamlama nitqi ilə çıxış edib, Azərbaycanın multikultural dəyərlərindən, tolerantlıq ənənələrindən danışıblar.

Sonra Azərbaycanın DQİDK-nın sədri Mübariz Qurbanlı çıxış edərək tolerantlığın ölkəmizdə çox möhkəm təməl sütunlarının, zəngin ənənələrinin mövcud olduğunu qeyd edib. M.Qurbanlı ölkəmizdə İslam dini ilə yanaşı, digər dinlərə mənsub insanların qarşılıqlı anlaşma, mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşadıqlarını diqqətə çatdırıb. Azərbaycanda müxtəlif dinlərə məxsus çoxlu sayda ibadət evlərinin sərbəst fəaliyyət göstərdiyini qeyd edən M.Qurbanlı ölkəmizdə yaşayan dini icmalara dövlət qayğısından danışıb. Komitə sədri Azərbaycan Prezidenti İlham Əliyevin multikulturalizmi və tolerantlığı Azərbaycanda dövlət siyasəti səviyyəsinə yüksəltdiyini diqqətə çatdırıb.

Baş konsul Nəsimi Ağayev tədbirdə iştirak edən və onun təşkilinə kömək göstərən təşkilatlarla sıx dostluq münasibətlərinin qurulduğunu vurğulayıb və bunun Azərbaycanın dinlərarası tolerantlıq modelinin ABŞ-da təbliği işinə yüksək töhfə verdiyini bildirib. Diplomat tədbirin keçirildiyi məkanın da əlamətdar yer olduğunu, ABŞ Prezidenti Vudro Vilsonun 1919-cu ildə məhz "Commonwealth Club" təşkilatında etdiyi çıxış zamanı Azərbaycan barədə müsbət fikirlərini bölüşdüyünü qeyd edib.

Sonra çıxış edən Azərbaycan nümayəndə heyətinin üzvləri Fuad Nurullayev, Milix Yevdayev, Aleksandr Şarovski, Robert Mobili və Elnur Əfəndiyev ölkəmizin tarixi tolerantlıq və multikulturalizm ənənələrindən danışaraq, uzun əsrlərdən bəri dini və etnik mənsubiyyətindən asılı olmayaraq hər kəsin Odlar Yurdunda sülh, qardaşlıq və əmin-amanlıq şəraitində birgə yaşadığını diqqətə çatdırıblar.

Daha sonra nümayəndə heyətinin üzvləri tədbir iştirakçılarının və media nümayəndələrinin suallarını cavablandırıblar.

Qeyd edək ki, radikal daşnak erməni lobbi təşkilatı olan Amerika Erməniləri Milli Komitəsinin (ANCA) San-Fransisko bölməsi tədbirin keçirilməsinin qarşısını almaq üçün müxtəlif vasitələrlə səylər göstərsə də, buna nail ola bilməyib. Bu zaman ANCA tədbirə nümayəndələrini göndərərək Azərbaycan haqqında yalan məlumatların əks olunduğu vərəqələr yaymağa cəhdlər göstərib. Bunun da qarşısı alındıqdan sonra erməni lobbisinin




təmsilçiləri tədbirin gedişinə mane olmağa çalışaraq Ermənistan-Azərbaycan münaqişəsinin mahiyyətini təhrif edən təxribat xarakterli suallar veriblər. Cavab olaraq, DQİDK-nın sədri M.Qurbanlı Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğal edildiyini və 1 milyondan çox soydaşımızın öz yurdundan didərgin salındığını, bu münaqişənin dinlərarası münaqişə olmadığını qeyd edərək, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin nə üçün indiyədək Ermənistan tərəfindən icra olunmadığını soruşub. Öz təxribat niyyətlərini həyata keçirə bilməyən və digər iştirakçıların da etirazı ilə üzləşən erməni lobbiçiləri rüsvayçılıqla tədbiri tərk ediblər.

* * *

Azərbaycan nümayəndə heyəti San-Fransisko Şəhər Şurasının üzvü Norman Yi və Kaliforniya ştat senatoru Ceri Hill ilə görüşlər keçirib. Eyni zamanda, Azərbaycan nümayəndə heyəti bir sıra kilsələrdə və sinaqoqda da olub. Görüşlər zamanı Azərbaycanın tarixi tolerantlıq və zəngin multikulturalizm ənənələri haqqında geniş məlumat verilib. Azərbaycanda İslam dini ilə yanaşı, digər dinlərə mənsub insanların qarşılıqlı anlaşma, mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşadıqları diqqətə çatdırılıb, həmçinin bu ənənələrin artıq ölkəmizdə dövlət siyasəti səviyyəsinə yüksəldildiyi vurğulanıb.

Qeyd edək ki, səfər Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycanın Los-Anceles şəhərindəki Baş Konsulluğu və Amerika Yəhudi Komitəsinin birgə təşkilatçılığı ilə həyata keçirilib. Görüşlərdə nümayəndə heyətini Azərbaycan Respublikasının Los-Anceles şəhərindəki Baş konsulu Nəsimi Ağayev müşayiət edib.

# Azərbaycan nümayəndə heyətinin ABŞ-a rəsmi səfəri barədə yerli mətbuatda məqalələr dərc edilib

ABŞ-da geniş oxucu kütləsi toplamış ingilisdilli məşhur "The Jerusalem Post" və "NewsBlaze" qəzetlərində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının rəhbərliyi ilə ABŞ-da səfərdə olan Azərbaycan nümayəndə heyətinin görüşləri barədə məqalələr dərc edilib.

Məqalələrdə bir çox ölkələrdə dini zəmində ürəkaçan mənzərə olmasa da, əksəriyyəti müsəlmanlardan ibarət olan Azərbaycanın müxtəlif dinlərin nümayəndələrinin birgəyaşayış modelinə malik olduğu vurğulanır. Bu gün dünya miqyasında demokratik dəyər kimi təbliğ olunan tolerantlığın Azərbaycan xalqının min illiklər boyu formalaşmış xarakterik xüsusiyyəti olduğu qeyd edilir. Bildirilir ki, tolerantlığın Azərbaycan xalqının xarakterik xüsusiyyəti olduğunu sübut etmək üçün geniş tədqiqat aparılmasına ehtiyac yoxdur. Çünki əsrlər boyu kilsələr və sinaqoqlar məscidlərlə yanaşı fəaliyyət göstərmiş, nəticədə Azərbaycan tolerantlıq mərkəzlərindən birinə çevrilmişdir. Tolerantlıq Azərbaycan xalqının tarixi uğuru olmaqla yanaşı, həm də gələcək inkişafının və sabitliyinin təminatıdır.

Vurğulanır ki, ölkəmizdə bütün dini konfessiyalar qanun qarşısında bərabərdir və eyni statusa malikdir. Ölkə vətəndaşlarımn əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarının təmin olunması ilə yanaşı, dövlət ölkəmizdə yaşayan bütün dinlərin nümayəndələrinə qayğı və diqqət göstərir.

Diqqətə çatdırılır ki, Azərbaycanda aparılan çoxmədəniyyətli dialoq müxtəlif dinlərə və mənşəyə malik insanlar arasında sülh şəraitində birgəyaşayışın yaxşı nümunəsi kimi istifadə oluna bilər. Multikulturalizmə meyillərin gücləndirilməsi üçün ölkəmizdə bütün zəruri tədbirlər həyata keçirilir. Bu gün Azərbaycandakı mövcud dini-etnik dözümlülük, müxtəlif mədəniyyətlər arasındakı sivil dialoq müxtəlif dünya ölkələri tərəfindən də təqdir olunmaqdadır.

Məqalələrdə, eyni zamanda nümayəndə heyətinin səfər çərçivəsində keçirdiyi görüşlərin əhəmiyyətinə də toxunulur. Azərbaycanın gələcəkdə də dini harmoniya və multikulturalizm sahəsində irəliləyəcəyi qeyd olunur.


NewsBlaze BUSINESS ENTERTAINMENT ISSUES SOCIAL THOUGH

Home › USA › National › Azerbaijan Gives Los Angeles a Lesson in the Religion of Humanity

Azerbaijan Gives Los Angeles a Lesson in the Religion of Humanity

By Nurit Greenger - Wed May 16, 2018

54 Shares 46 8

Today's date is May 14, 2018. In calendar day in history, 70 years ago, on May 14, 1948, David Ben Gurion, the first Prime Minister of the Jewish State, declared the State of Israel an independent and sovereign state. On this momentous date, fast forward 70 years, under impressive international jubilee banner, Jerusalem, the city of gold, won; the city received her crown title back, being the capital of the Jewish people.

On May 14, 2018, the moving from Tel Aviv and the opening of the U.S. Embassy in Jerusalem should be seen as a national and international milestone, and a turning point for the State of Israel. The American people should be just as thrilled as the Israelis, because the United States embassy's opening is a crowning moment for the U.S. foreign policy and for President Donald Trump. It is also a crowning moment for Jews, the world over, and every nation that is seeking everlasting world peace.

# BAKIDA "HEYDƏR ƏLİYEV VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB

Mayın 1-də Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev və milli-mənəvi dəyərlər" mövzusunda konfrans keçirilib.

Konfransı açan DQİDK-nın sədri Mübariz Qurbanlı Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın özünəməxsus dövlət-din münasibətləri modelinin formalaşdırılmasında, eləcə də milli-mənəvi dəyərlərin qorunub saxlanılmasında əvəzsiz xidmətlərindən bəhs edib. Bildirib ki, Ulu Öndər xalqda milli heysiyyəti gücləndirmək, habelə zəngin irsimizi, mədəniyyətimizi, incəsənətimizi, adət-ənənələrimizi yaşatmaq, ana dilimizi Azərbaycanda ötən əsrin 90-cı illərin əvvəllərində müəyyən dini təşkilatlar öz planlarını həyata keçirmək üçün müxtəlif üsul və metodlardan istifadə etməyə cəhdlər ediblər. Məhz Ulu Öndər Heydər Əliyevin dövlətin din siyasətinin müəyyənləşdirilməsi istiqamətində atdığı addımlar, onun təşəbbüsü ilə Azərbaycanın müstəqillik illərinin ilk vaxtlarında qəbul edilən qanun layihələrinin sonradan təkmilləşdirilməsi bu prosesin qarşısını aldı.

Azərbaycanda dinə göstərilən dövlət qayğısı barədə məlumat verən C.Məmmədov deyib ki, Azərbaycanda dövlətin dinə göstərdiyi diqqət və qayğı digər ölkələrdə müşahidə olunmur. Ulu Öndərin kursunu uğurla davam dini icmasının sədri Aleksandr Şarovski, AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun şöbə müdiri Sakit Hüseynov, Prezident yanında Bilik Fondunun nümayəndəsi Hacı Abdulla və Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili çıxış edərək bildiriblər ki, Ulu Öndər Heydər Əliyev bütün həyatı boyu mənəvi-əxlaqi və dini dəyərlərimizin, adət-ənənələrimizin keşiyində durub. Heydər Əliyev dövlət quruculuğu prosesi ilə paralel surətdə mədəni-mənəvi quruculuq və milli-tarixi yaddaşın bərpası işlərini də həyata keçirib. Ümummilli Liderin işıqlı ideyaları bu gün də yaşayır və həyata keçirilir.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı dini




inkişaf etdirmək üçün bir sıra mühüm tədbirlər həyata keçirib. Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı gənc dövlətin siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, Azərbaycan xalqının milli-mənəvi irsini ehtiva edən ideyanın – Azərbaycançılığın təşəkkül və inkişafında müstəsna rol oynayıb. Bu uğurlu siyasətin davamı olaraq bu gün Prezident İlham Əliyev milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasını, təbliğ və təşviq edilməsini daim diqqət mərkəzində saxlayır. Mənəvi Dəyərlərin Təbliği Fondunun təsis edilməsi dövlət başçısının milli-mənəvi dəyərlər sahəsinə göstərdiyi diqqət və qayğının bir daha sübut edir. O, milli-mənəvi dəyərlərimizin mühafizəsində Qafqaz Müsəlmanları İdarəsinin də böyük xidmətlərinin olduğunu bildirib.

"Heydər Əliyev və milli-mənəvi dəyərlər" mövzusunda konfransın materiallarından ibarət kitabın nəşr edildiyini diqqətə çatdıran Dövlət Komitəsinin sədri nəşrdə Ümummilli Liderin milli-mənəvi dəyərlərimizə göstərdiyi qayğı, dini etiqad azadlığının təmin olunması sahəsində Azərbaycan təcrübəsi, eyni zamanda İslam həmrəyliyi ideyası və ölkəmizdə tarixən mövcud olan tolerantlıq mühiti barədə dolğun məlumatların əks olunduğunu deyib.

Prezident Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin böyük məsləhətçisi Ceyhun Məmmədov bildirib ki, etdirən Prezident İlham Əliyev tərəfindən İslam həmrəyliyinə yönələn siyasətin aparıldığını deyən C.Məmmədov qeyd edib ki, ölkəmizdə İslam dini ilə yanaşı, digər dinlərə də diqqət və qayğı göstərilir.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Qəmərxanım Cavadlı çıxış edərək bildirib ki, milli-mənəvi dəyərlər sisteminin formalaşması ideyasının əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Dinin milli-mənəvi dəyərlərin əsasını təşkil etdiyini deyən QMİ sədrinin müavini vurğulayıb ki, dövlətimiz tərəfindən müsəlmanlarla yanaşı, xristianlar və yəhudilər üçün də hər cür imkan yaradılıb.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva qeyd edib ki, konfransda bu gün aktual olan milli-mənəvi dəyərlər mövzusunun müzakirəyə çıxarılması təqdirəlayiqdir. O deyib ki, 90-cı illərdə müxtəlif qüvvələr Azərbaycanı ciddi böhranla üz-üzə qoymuşdu. Ümummilli Lider Heydər Əliyevin apardığı siyasət nəticəsində Azərbaycan xalqı bu çətinlikdən çıxdı və bu gün milli-mənəvi dəyərlərimizin yaşaması bu siyasətin nəticəsidir.

Daha sonra Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, "SƏS" Media Qrupunun rəhbəri, Mənəvi Dəyərlərin Təbliği Fondunun Himayəçilər Şurasının üzvü Bəhruz Quliyev, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru vəzifəsini icra edən Rəvan Həsənov, Avropa yəhudilərinin Bakı icmalar arasında keçirilən yazı müsabiqəsi haqqında məlumat verib. Bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" imzaladığı Sərəncama əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinin tərəfindən "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə dair Tədbirlər Planı" təsdiq olunub. Sözügedən Tədbirlər Planında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dini icmaların üzvləri arasında Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti ilə bağlı məqalə müsabiqəsinin keçirilməsi nəzərdə tutulub. Həmin müsabiqənin yekunlarına əsasən 6 nəfər dini icma nümayəndəsi münsiflər heyəti tərəfindən qalib seçilib.

Sonra məqalə müsabiqəsinin qalibləri mükafatlandırılıb.

Müsabiqənin nəticələrinə görə Ağcabədi rayon "Seyid Mürsəl Ağa" məscidi dini icmasının sədri Zeynəb Quliyeva I yerə, Daşkəsən şəhər "Cümə" məscidi dini icmasının sədri Ənvər Əliyev II yerə, Lənkəran rayonu Tükəvilə kənd məscidi dini icmasının sədri Murad Əzizov III yerə layiq görülüblər. Zaqatala rayon Çobankol kənd "Cümə" məscidi dini icmasının sədri Məhəmməd Nurullayev, Lənkəran rayon Şağlaser kənd məscidi dini icmasının sədri Ruhulla Ruhullayev və Ağdam rayon Xındırıstan kənd məscidi dini icmasının üzvü Mehman Nəsirov isə həvəsləndirici mükafatlarla təltif ediliblər.

## RAMAZAN AYINDA BÜTÜN MƏSCİDLƏR AZANLARLA BAĞLI QMİ-NİN FƏTVASINA ƏMƏL ETMƏLİDİR

"Ramazan ayında azanlarla bağlı Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) fətvası var, bütün məscidlər bu fətvaya əməl etməlidir".

Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib. O bildirib ki, bu fətva ilə bərabər, QMİ-də rəsmi təsdiq olunmuş təqvim var: "Bu təqvim də Şamaxı Rəsədxanasında öz təsdiqini tapmış təqvimə uyğun hazırlanıb. Rəsmi şəkildə təsdiq olunmuş təqvimdən kənara çıxan məscidlər barədə bizə məlumatlar daxil olduqda, yerli şöbələrimizin nümayəndələri həmin məscidə gedəcək. Məscidin imamına, imam-naibinə xəbərdarlıq ediləcək. Belə hallar təkrarlanarsa, ciddi tədbirlər görüləcək. Bu tədbirlər sırasında protokol tərtib olunaraq, onların cərimələnməsi də var. Təqvimin pozulması ilə bağlı bizə bu günlərdə məlumat daxil olmayıb. Çalışırıq ki, bu, baş verməsin".

## "ABŞ-IN BEYNƏLXALQ DİN AZADLIĞI KOMİSSİYASININ AZƏRBAYCANLA BAĞLI HESABATI HƏQİQƏTƏ UYĞUN DEYİL"

"ABŞ-ın Beynəlxalq Din Azadlığı Komissiyasının Azərbaycanda dini azadlıqda bağlı hesabatına rəsmi cavab vermişik. Qəti şəkildə bildirmişik ki, hesabatdakıların heç biri həqiqətə uyğun deyil".

Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib. O deyib ki, Azərbaycanda dini etiqad azadlığı dünyada ən qabaqcıl ölkələrdən belə yüksək səviyyədədir: "ABŞ-da səfərdə olduğumuz zaman da bu məsələni müzakirə etdik. ABŞ səfirliyinə də bu barədə məlumat verilib. Həmin sənəddə çoxlu yanlışlığa yol verilib, 2-3 il əvvəlki faktı builki fakt kimi yazıblar. Azərbaycanda dini fəaliyyətə heç bir təqib yoxdur. Əgər bu və ya digər şəxs cinayət məsuliyyətinə cəlb edilərək məhkəmə hökmü ilə cəzalandırılıblarsa, bu şəxslər Cinayət Məcəlləsində bu və ya digər maddələri pozduğuna görə cəzalandırılıblar. Bunları dini fəaliyyət, etiqad azadlığı ilə əlaqəsi yoxdur. Bu gün bir jurnalist başqa bir əmələ görə cinayət məsuliyyətinə cəlb edilirsə, bu o demək deyil ki, jurnalist olduğuna görə həbs edilə bilməz. Yaxud kiminsə müəllim, həkim olduğuna görə cinayət məsuliyyətinə cəlb edilə bilməməsi mümkün deyil. Din xadimidirsə, başqa bir əməl törətdiyinə görə həbs olunubsa, bunu dini etiqad azadlığına bağlamaq düzgün deyil".

## Azərbaycan İlahiyyat İnstitutuna bina ayrılıb

"Azərbaycan İlahiyyat İnstitutuna 20 Yanvar metrosu yaxınlığında bina ayrılıb". Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib. O qeyd edib ki, institut üçün gələcəkdə şəhərdən kənarda yer ayrılacaq və kampus tikiləcək: "Bu il dinşünaslıq və islamşünaslıq ixtisasları üzrə İlahiyyat İnstitutuna qəbul elan edilib, 60 tələbə qəbul olunacaq. İlahiyyat İnstitutuna birləşdirilən Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsində hazırda oxuyan tələbələr də nəzərə alınsa, təxminən 100 tələbə olacaq. Bu tələbələr üçün isə hazırda ayrılan bina yetərlidir. Onu da deyim ki, gələcəkdə institutda Xristianlıq, Yəhudilik və digər dinlərlə bağlı da ixtisaslar yaradılacaq". Komitə sədri qeyd edib ki, İlahiyyat İnstitutuna yaxın vaxtlarda rektor təyin ediləcək.



## DİN SAHƏSİNDƏ YALNIZ RƏSMİ TƏYİNATI OLAN ŞƏXSLƏR FƏALİYYƏT GÖSTƏRƏ BİLƏR

"Azərbaycan qanunvericiliyinə əsasən ölkəmizdə din sahəsində yalnız rəsmi təyinatı olan şəxslər fəaliyyət göstərə bilər. Bu, tək İslama deyil, Yəhudilik, Xristianlıq və digər dini icmalara da aiddir".

Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib. O deyib ki, əgər kimsə rəsmi təyinat olmadan fəaliyyət göstərirsə, İnzibati Xətalar və Cinayət məcəllələrində bununla bağlı maddələr var: "Bizim Komitənin də bu cür şəxsləri aşkara çıxarmaq, protokollar tərtib etmək, cərimələmək səlahiyyəti var. Qeyri-qanuni şəkildə dini ayinləri icra etmək qəti qadağandır". Komitə sədri qeyd edib ki, Qafqaz Müsəlmanları İdarəsinin sədri də qeyri-qanuni fəaliyyət göstərən din xadimlərinin fəaliyyətinin yolverilməz olduğunu vurğulayıb: "Bu cür şəxslər bəzən insanları aldadaraq qeyri-qanuni kəbin kəsməklə məşğul olur. Kimsə dini kəbin kəsdirmək istəyirsə, yalnız rəsmi şəkildə fəaliyyət göstərən hər hansı din xadiminə kəbin kəsdirə bilər. Kəbin də o zaman kəsilə bilər ki, evlənən insanlar həddi-büluğa çatmış olsun və onların vətəndaşlıq aktlarının qeydiyyatı ilə bağlı rəsmi nikah sənədi olsun. Əgər həmin rəsmi nikah sənədini məsciddə, yaxud hər hansı dini məkanda çalışan din xadiminə təqdim etmirsə, bu halda dini kəbin kəsilməsi yolverilməzdir. Qafqaz Müsəlmanları İdarəsinin də bu sahədə qəti tələbi var. Biz müsəlmanıq, rəsmi nikahdan sonra hər hansı din xadiminin yanına gedərək kəbin kəsdirmək istəyən varsa, bu insanların öz hüquqlarıdır. Amma kəbin yalnız rəsmi nikah sənədi təqdim olunduğu halda rəsmi təyin edilən din xadimi tərəfindən kəsilə bilər. Rəsmi təyin olunmayan şəxslər bu cür fəaliyyətlə məşğul olur və bu da çox böyük problemlər yaradır. Bəzən azyaşlılara kəbin kəsirlər. Bu, cinayətdir və bəziləri cinayət məsuliyyətinə cəlb edilib".

Komitə sədri, hətta yas mərasimlərini rəsmi fəaliyyət göstərməyən şəxsin aparmasının da yolverilməz olduğunu vurğulayıb: "Bu ara mollaları bəzən insanları aldadıb guya Quranla fala baxırlar. Quran açıb fala baxanlar elə Quranın özünə qarşı getmiş olurlar. Çünki Quranda falçılıq lənətlənir".

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı mayın 7-də Türkiyənin Əziz Mahmud Hudayi Vəqfinin fəxri sədri Osman Nuri Topbaşın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

DQİDK-nın sədri qonaqları Azərbaycanın nümunəvi dövlət-din modelinin əsasları barədə məlumatlandırıb. O, dövlət başçısı tərəfindən ölkəmizdə "İslam Həmrəyliyi İli"nin elan edilməsinin, Mənəvi Dəyərlərin Təbliği Fondunun, o cümlədən İlahiyyat İnstitutunun yaradılmasının milli-mənəvi dəyərlərimizə verilən ən yüksək qiymət olduğunu diqqətə çatdırıb.

O.N.Topbaş Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycanda bütün sahələrdə sürətli inkişafın, tərəqqinin şahidi olduğunu deyib. O, eyni zamanda Azərbaycanda dinə, din xadimlərinə olan xüsusi diqqət və qayğıdan məmnun olduğunu vurğulayıb. Görüşdə dini sahədə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunub.

***

Mayın 11-də DQİDK-nın sədri Mübariz Qurbanlı ölkəmizdə səfərdə olan Rumıniyanın dini məsələlər üzrə dövlət katibi Viktor Opaskinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Rumın və Azərbaycan xalqları arasında tarixi əlaqələrin mövcud olduğunu bildirən Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı rəhbərlik etdiyi qurumun fəaliyyəti, Azərbaycandakı dini durum və dövlət-din münasibətləri, dinə dövlət qayğısı barədə məlumat verib. Bildirib ki, ölkəmizdə kilsə və sinaqoqlar məscidlərlə yanaşı fəaliyyət göstərir.

Görüşün iki ölkə arasında müvafiq sahədə fikir mübadiləsi aparılması üçün əhəmiyyətli olduğunu və Azərbaycanın bu sahədə mövcud təcrübəsinin öyrənilməsinin vacibliyini diqqətə çatdıran V.Opaski Azərbaycanda mədəni müxtəliflik, tolerantlıq və multikulturalizm kimi məsələlər üzrə fəal iş aparıldığını qeyd edib.

Rumıniyanın Müsəlman İcmasının Ali Müftisi Yusuf Murad çıxış edərək ölkəsində müsəlman icmasının fəaliyyəti, gördüyü işlər barədə ətraflı məlumat verib. O, ötən il "İslam Həmrəyliyi İli" çərçivəsində Qafqaz Müsəlmanları İdarəsi tərəfindən təşkil olunan bir sıra beynəlxalq konfranslarda iştirak etdiyini diqqətə çatdırıb.

Görüşdə Dövlət Komitəsinin sədr müavinləri Səyavuş Heydərov, Gündüz İsmayılov, Rumıniyanın Azərbaycandakı səfiri Dan İanku da iştirak ediblər.

Qeyd edək ki, Viktor Opaskinin başçılıq etdiyi nümayəndə heyəti Mübariz Qurbanlının dəvəti ilə ölkəmizdə səfərdə olub.

***

Mayın 3-də DQİDK-nın sədr müavini Səyavuş Heydərov "Yehovanın Xristian Şahidləri" Avropa Assosiasiyasının sədri Toni Breys və qurumun nümayəndəsi Mariyano Makiyas Quzman ilə görüşüb.

Dövlət Komitəsinin sədr müavini qonaqlara ölkəmizdəki nümunəvi tolerant və multikultural mühit barədə məlumat verib. Bildirib ki, ölkəmizdəki dinlərarası münasibətlərə xələl gətirəcək formada fəaliyyət göstərməyən bütün dini qurumlara tam şərait yaradılıb, dini konfessiya nümayəndələrinə qarşı dözümlülük və tolerantlıq nümayiş olunur.

Toni Breys son illər ölkəmizdə "Yehovanın şahidləri" dini icmasının üzvlərinin normal fəaliyyətinin təmin olunması, xüsusi ayinlərin icrası və dini bayramlarının qeyd olunması üçün yaradılan şəraitə görə razılığını ifadə edib. ABŞ-ın "Beynəlxalq Dini Azadlıq üzrə Komissiyası"nın son günlərdə açıqladığı hesabatına da toxunan qonaq ötən illərə aid bəzi məsələlərin yenidən hesabatda irad kimi qeyd olunmasından təəssüfləndiyini, bu cür qeyri-obyektiv məlumatların yayılmasının qarşısının alınması üçün əməkdaşlığın daha da intensivləşdirilməsinin vacibliyini vurğulayıb.

***

Mayın 7-də DQİDK-nın sədr müavini Səyavuş Heydərov Cənubi Qafqaz və Gürcüstan Yevangelik-Lüteran kilsəsinin yepiskopu Markus Şox ilə görüşüb.

Dövlət Komitəsinin sədr müavini Azərbaycandakı dini tolerantlıq mühiti və dövlətin bu istiqamətdə həyata keçirdiyi siyasətdən bəhs edib. Dini və multikultural təhlükəsizliyin təminatına dövlət siyasətinin prioritet istiqaməti kimi önəm verildiyi diqqətə çatdıran S.Heydərov bu nümunəvi modelin bütün dünyada maraqla qarşılandığını bildirib.

Cənubi Qafqaz və Gürcüstan Yevangelik-Lüteran kilsəsinin yepiskopu M.Şox ölkəmizdə bütün dini konfessiya nümayəndələrinə eyni ehtiramın göstərilməsinin əyani şahidi olduğunu, ölkəmizdəki lüteran kilsələrinin təmir və bərpa edilməsinin tarixi irsə diqqət və qayğının bariz nümunəsi olduğunu bildirib.

Görüşdə Azərbaycanda alman yaşayış məskənlərinin salınmasının 200 illiyi münasibətilə icma tərəfindən keçirilməsi nəzərdə tutulan tədbirlər barədə də fikir mübadiləsi aparılıb.

# "DİNİ İCMALAR VƏ GƏNCLƏR: DİNİ RADİKALİZMLƏ MÜBARİZƏ VƏ BİRGƏ FƏALİYYƏTİN TƏŞKİLİ" MÖVZUSUNDA SEMİNAR-MÜŞAVİRƏLƏR KEÇİRİLİB



**ŞABRANDA**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Şabran Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə mayın 10-11-də Şabranda "Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili" mövzusunda ikigünlük seminar-müşavirə keçirilib. Din xadimləri, dini icma sədrləri və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbiri Şabran RİH-in başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Elnur Şahmərdanov giriş sözü ilə açaraq mövzunun əhəmiyyətindən danışıb.

Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycanda dövlət-din münasibətləri yüksələn xətlə inkişaf edir və bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. S.Salahlının sözlərinə görə, Ümummilli Liderimizin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycanda bütün sahələrdə olduğu kimi dini sahədə də dirçəlmə və irəliləyişlər ciddi şəkildə özünü büruzə verib.

DQİDK sədrinin birinci müavini deyib ki, Azərbaycan bir çox millətlərin və dini konfessiyaların dinc yanaşı yaşamasının unikal nümunəsidir. S.Salahlı vurğulayıb ki, ölkəmizdə ayrı-ayrı dinlərə, xalqlara mənsub olan insanlar arasında tarix boyu xoş münasibətlərin mövcud olması reallıqdır. Azərbaycan dövləti müstəqilliyini bərpa etdikdən sonra bu ənənə daha da güclənib və bu gün xalqımızın ən mühüm nailiyyətləri sırasında yer alır.

Dini radikalizm və dini ekstremizmə qarşı mübarizənin metodologiyası barədə də danışan natiq qeyd edib ki, dini radikalizmə qarşı mübarizədə maarifçilik əsas silahdır. Dini maarifləndirmənin gücləndirilməsi, dinimizin düzgün şəkildə insanlara aşılanması radikalizmin qarşısının alınmasında ən güclü vasitədir.

Tədbirdə çıxış edən Şabran şəhəri "Xıdır Zində" məscidinin imamı Rahib Mövsümov ölkəmizdə dinə və dindarlara göstərilən diqqət və qayğıdan söz açıb.

***İkigünlük seminar-müşavirə işini növbəti gün davam etdirib.***

Gənclər, müəllimlər, yuxarı sinif şagirdləri və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirin ikinci günündə öncə DQİDK-nın sifarişi ilə çəkilmiş dini radikalizm və terrorizmin fəsadlarından bəhs edən "Üfüqdəki gələcək" sənədli filmi nümayiş etdirilib.

Tədbiri giriş sözü ilə açan Şabran RİH-in başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Elnur Şahmərdanov bildirib ki, bu cür tədbirlərin keçirilməsi gənclərin dini sahədə maariflənməsinə öz müsbət təsirini göstərir.

Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda ənənə halını almış multikultural və tolerant mühit bütün dünyada təbliğ və təşviq olunmaqdadır. Dövlət Komitəsi sədrinin birinci müavini qeyd edib ki, Azərbaycandakı dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir. Onun sözlərinə görə, ölkəmizdə iki mindən artıq məscid mövcuddur. Təkcə son 11 il ərzində 150-ə yaxın məscid tikilib, 90-a yaxın məscid əsaslı şəkildə bərpa edilib.

Yeni yaradılan Mənəvi Dəyərlərin Təbliği Fondu haqqında da məlumat verən S.Salahlı deyib ki, DQİDK-nın tabeliyində fəaliyyət göstərən Fond ölkəmizdə mövcud dini konfessiyaların dəstəklənməsini, mənəvi dəyərlərin qorunmasını və inkişafını, bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin edəcək.

Səyyad Salahlı gənclərin ekstremizm və digər zərərli vərdişlərdən qorunması üçün onlar arasında dini maaarifləndirmə işinin aparılmasının önəmini də diqqətə çatdırıb.

Sonda çıxış edən DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin tərkibində Dini təhsil sektorunun müdiri Anar Əlizadə bildirib ki, terrorizm getdikcə daha da gəncləşir və gənclərin terror təşkilatlarına cəlb edilməsi halları çoxalır. O qeyd edib ki, bəzi dairələr tərəfindən İslamın məqsədli şəkildə terror dini kimi təbliğ edilməsi islamofobiya hallarının artması ilə nəticələnib. A.Əlizadə dini radikal qrupların təbliğat metodlarından da bəhs edib.

Seminar-müşavirə iştirakçıları maraqlandıran sualların cavablandırılması ilə yekunlaşıb.

**AĞCABƏDİDƏ**

Bu qəbildən olan növbəti ikigünlük seminar-müşavirə mayın 24-25-də DQİDK və Ağcabədi RİH-in birgə təşkilatçılığı ilə Ağcabədidə baş tutub. Tədbirdə rayonun hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin rəhbərləri, bələdiyyə sədrləri, məktəb direktorları, orta ümumtəhsil məktəblərinin psixoloqları və "Həyat bilgisi" fənnini tədris edən müəllimlər, eləcə də din xadimləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Ağcabədi RİH-in başçısı Şahin Məmmədov əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən daxili və xarici siyasət nəticəsində ölkəmizdə hökm sürən ictimai-siyasi sabitlikdən və bütün dünyaya örnək ola biləcək tolerantlıq mühitindən danışıb.

Çıxışında dini radikalizmin təzahürləri barədə də danışan RİH başçısı xurafatın bütün cəmiyyət üçün təhlükəli olduğunu vurğulayıb. Dini radikalizmə qarşı mübarizədə mühüm vasitə olan dini maarifləndirmə prosesində cəmiyyətin bütün təbəqələrinin fəal olmalarının zəruriliyini diqqətə çatdırıb.




Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, bu cür tədbirlərin keçirilməsində məqsəd Azərbaycan xalqının zəngin multikultural və tolerantlıq ənənələrinin təbliği, eyni zamanda dini radikalizm və ekstremizmlə mübarizədir. S.Salahlının sözlərinə görə, dünyada dinlər və məzhəblərarası münaqişələrin baş verdiyi dönəmdə Azərbaycan özünün tolerantlıq ənənələrini və multikulturalizm modelini dünyaya nümunə kimi təqdim edir. Dövlət Komitəsi sədrinin birinci müavini tolerantlığın radikalizmin qarşısının alınmasında mühüm vasitə olduğunu bildirib.

Komitə sədrinin birinci müavini vurğulayıb ki, dini maarifləndirmə işinin aparılmasında dini icmaların və din xadimlərinin üzərinə böyük vəzifə və məsuliyyət düşür. Natiq, həmçinin din xadimlərini gənc nəsli milli-mənəvi dəyərlər ruhunda yetişdirməkdə fəal olmağa çağırıb.

Tədbirdə çıxış edən digər natiqlər ölkəmizdə dinə və dindarlara göstərilən diqqət və qayğıdan söz açıblar.

***Ağcabədidə keçirilən ikigünlük seminar-müşavirə mayın 25-də öz işini davam etdirib.***

Müəllim, tələbə və rayonun aktiv gənclərinin iştirak etdiyi tədbirdə öncə DQİDK-nın sifarişi ilə çəkilmiş dini radikalizm və terrorizmin fəsadlarından bəhs edən "Üfüqdəki gələcək" sənədli filmi nümayiş etdirilib. Sonra RİH başçısının müavini – İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Naibə Mustafayeva gənclər arasında maarifləndirmə tədbirlərinin keçirilməsinin vacibliyini diqqətə çatdırıb.

Tədbirdə çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı respublikamızda dini və multikultural təhlükəsizliyin təminatına dövlət siyasətinin prioritet istiqaməti kimi önəm verildiyini diqqətə çatdırıb. S.Salahlının sözlərinə görə, Azərbaycanda bütün xalqlar, müxtəlif dinlərin nümayəndələri əsrlər boyu bir ailə kimi yaşayıblar və heç zaman dinlərarası və məzhəblərarası münaqişə baş verməyib. Natiq, həmçinin qeyd edib ki, Heydər məscidində qılınan vəhdət namazı dünyaya Azərbaycan təcrübəsindən yararlanmağın vacibliyini nümayiş etdirir. DQİDK sədrinin birinci müavini Azərbaycanda həyata keçirilən dini radikalizmlə mübarizə tədbirlərindən də danışıb. Vurğulayıb ki, radikalizmi doğuran başlıca səbəblərdən biri İslam dini haqqında məlumatsızlıq və yanlış yönləndirilmədir. Bu səbəbdən dini radikalizmlə mübarizədə ilk növbədə dini maarifçilik işinin təşkilinə xüsusi önəm verilməlidir.

DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin tərkibində Dini təhsil sektorunun müdiri Anar Əlizadə isə deyib ki, müasir dövrümüzdə dünyanın bir çox dövlətləri dini ekstremizm və terrordan ciddi əziyyət çəkir. Sektor müdirinin sözlərinə görə, yüksək əxlaqi dəyərlərin təbliği, insanların birlik və bərabərliyinin təmin edilməsi, sülhün və əmin-amanlığın qorunması missiyasını daşıyan dinlərdən müasir dövrdə siyasi məqsədlərin həyata keçirilməsində istifadə olunur.

Dövlət Komitəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva "Dini təbliğat və sosial şəbəkələr" adlı təqdimatla çıxış edib. O, dini radikal qrupların fəaliyyətindən, onların təbliğat metodlarından danışaraq qeyd edib ki, dini radikal qruplar xüsusilə gəncləri öz təsir dairələrinə salmaq üçün sosial şəbəkələrdən istifadə edirlər. Bunun da əsas səbəblərindən biri sosial şəbəkələrin daha geniş auditoriyanı əhatə etməsi, bu cür təbliğatın daha az vaxt və enerji tələb etməsi, eləcə də sosial şəbəkələrdə yaş, cins, etnik və dini fərqlərin olmamasıdır.

DQİDK-nın əməkdaşı Tərxan Paşazadə isə dini ekstremizmə qarşı mübarizənin məqsədləri və prinsipləri haqqında məlumat verib.

Sonda Dövlət Komitəsinin nəşr etdirdiyi dini təyinatlı ədəbiyyatlar tədbir iştirakçılarına paylanılıb.

# SƏYAVUŞ HEYDƏROV: DİNİ TƏHLÜKƏSİZLİK OLMADAN MİLLİ TƏHLÜKƏSİZLİYİ TƏMİN ETMƏK QEYRİ-MÜMKÜNDÜR

Mayın 15-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Cəlilabad şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən seminar-müşavirədə "Milli təhlükəsizliyə əsas təhdidlərdən biri - dini radikalizm" mövzusunda müzakirələr aparılıb.

Tədbirdə Prezident Administra-siyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin əməkdaşı, Baş Prokurorluq, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və DQİDK-nın məsul işçiləri, bu qurumların Hacıqabul, Biləsuvar, Salyan, Neftçala, Şirvan və Cəbrayıl rayonlarındakı yerli strukturlarının nümayəndələri, prokurorlar, ziyalılar və dindarlar iştirak ediblər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri düzülüb, dahi rəhbərin xatirəsi ehtiramla anılıb.



Cəlilabad şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən seminar-müşavirədə DQİDK-nın sifarişi ilə çəkilmiş, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsinə həsr olunmuş "Şəhadət" sənədli filmi nümayiş etdirilib.

Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Namiq Zeynalov Azərbaycanın dövlət müstəqilliyini bərpasından sonra dövlət-din münasibətlərində yeni bir mərhələnin başladığını, dini ibadətgahların təmir və bərpa edildiyini, gənc nəslin sağlam ruhda, milli-mənəvi dəyərlərə sadiq yetişməsi istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyini bildirib.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov çıxışında dini ekstremizm və radikalizmin mahiyyəti, yaranma səbəbləri barədə danışıb. Bildirib ki, dünyanın bəzi aparıcı güc mərkəzləri geosiyasi və geoiqtisadi maraqlarını təmin etmək üçün dini siyasiləşdirərək ondan vasitə kimi istifadə etməyə cəhdlər göstərirlər. Hazırda dünyada beynəlxalq təhlükəsizlik problemlərinin əsasını etnik və dini zəmində baş verən münaqişələrin təşkil etdiyini vurğulayan S.Heydərov bu münaqişələrin məqsədyönlü şəkildə təşkil olunduğunu və bunun acı nəticələrinin bu gün Yaxın Şərqdə davam etdiyini diqqətə çatdırıb. Natiq diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycan mürəkkəb beynəlxalq vəziyyətə, regionda mövcud olan təhdidlərə, müxtəlif səpkili təzyiqlərə, yad dini ideologiyaların idxal edilməsi cəhdlərinə baxmayaraq, güclü siyasi iradə nümayiş etdirərək dini təhlükəsizliyi təmin edib və bu siyasətin hazırkı dövrdə davam etdirilməsi son dərəcə vacibdir.

Prezident Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin böyük məsləhətçisi Ceyhun Məmmədov qeyd edib ki, Azərbaycan hakimiyyəti dini durumun sabitliyinin, eləcə də dini dözümlülük ənənələrinin qorunub saxlanılması istiqamətində ardıcıl tədbirlər həyata keçirir. Ölkədə milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına xüsusi önəm verilir, dini etiqad azadlığı, dini qurumların dini ayin və mərasimləri sərbəst yerinə yetirməsi üçün şərait yaradılıb və onlara qayğı göstərilir. C.Məmmədov 2016-cı ilin Prezident İlham Əliyev tərəfindən "Multikulturalizm İli", ötən ilin isə "İslam Həmrəyliyi İli" elan edilməsinin bu sahəyə diqqətin bariz təzahürü olduğunu diqqətə çatdırıb.

Tədbirdə, həmçinin Baş Prokurorluğun nümayəndəsi Rauf Məmmədov, Daxili İşlər Nazirliyinin məsul əməkdaşı Oqtay Tağıyev mövzu ilə bağlı çıxış edərək, təmsil etdikləri qurumların dini radikalizmlə mübarizə istiqamətində həyata keçirdikləri profilaktik və inzibati tədbirlərdən danışıblar.

Seminar-müşavirə mövzu ətrafında fikir mübadiləsi ilə davam edib.

# "DİNİ EKSTREMİZM - İCTİMAİ VƏ MƏNƏVİ DƏYƏRLƏRƏ TƏHLÜKƏ MƏNBƏYİ KİMİ"

Mayın 16-da Dövlət Sərhəd Xidmətinin (DSX) Göytəpə Sərhəd Dəstəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Dini ekstremizm-ictimai və mənəvi dəyərlərə təhlükə mənbəyi kimi" mövzusunda tədbir keçirilib.

Zabit və sərhədçilərin iştirak etdiyi tədbiri giriş sözü ilə açan N saylı hərbi hissənin komandiri Müzəffər Pirizadə mövzunun əhəmiyyətindən danışıb.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov dini ekstremizmin mahiyyəti, yaranma səbəbləri və ona qarşı mübarizənin hüquqi əsasları, o cümlədən bu sahədə reabilitasiya işlərinə üstünlük verilməsi barədə tədbir iştirakçılarına ətraflı məlumat verib. Natiq bildirib ki, dini radikalizm və dini ekstremizm milli-mənəvi dəyərlərimizə əsas təhlükə mənbəyi hesab olunur. S.Heydərov dini radikalizmlə mübarizənin effektivliyinin artırılması üçün maarifləndirmə, preventiv və profilaktik xarakterli tədbirlərə üstünlük verildiyini də diqqətə çatdırıb. Sədr müavini vurğulayıb ki, DQİDK bu istiqamətdə digər dövlət qurumları, eləcə də hüquq-mühafizə orqanları ilə koordinasiyalı şəkildə tədbirlər həyata keçirir.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb və Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsinə həsr olunmuş "Şəhadət" sənədli filmi nümayiş olunub.

# HƏRBİ HİSSƏDƏ MAARİFLƏNDİRMƏ TƏDBİRİ KEÇİRİLİB



Mayın 23-də Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələri (HDQ) və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə hazırladığı Tədbirlər Planına əsasən Hərbi Dəniz Qüvvələrinin N saylı hərbi hissəsində zabit, əsgər heyətinin və Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərovun iştirakı ilə "Dini radikalizm-ictimai və mənəvi təhlükə mənbəyi kimi" mövzusunda maarifləndirmə xarakterli tədbir keçirilib.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov bildirib ki, Azərbaycanda dini radikalizmə qarşı mübarizə qanun çərçivəsində aparılır və bu mübarizədə ən səmərəli vasitə maarifləndirmə işidir. Radikalizmin və ekstremizmin təsirinə düşməyin başlıca səbəblərindən biri vətənpərvərlik hissinin zəif olmasıdır. Bu səbəbdən gənclər maarifləndirilməli, onlara vətənpərvərlik hissi aşılanmalıdır. Vətənpərvərlik mövzusunda çəkilən "Şəhadət" sənədli filmi barədə hərbçiləri məlumatlandıran sədr müavini vurğulayıb ki, filmdə bəhs edilən aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan xalqı bir qarış torpağını güzəştə getməyəcək.

Sonra "Şəhadət" sənədli filmi nümayiş etdirilib və hərbçiləri maraqlandıran suallar cavablandırılıb.

# Mehman İsmayılov: «Din xadimlərinə maddi dəstək veriləcək»

Mənəvi Dəyərlərin Təbliği Fondunun İcraçı direktoru Mehman İsmayılov Qafqazinfo.az saytına verdiyi açıqlamasında kütləvi informasiya vasitələrində və sosial mediada Fond tərəfindən din xadimlərinə ayrılan maddi dəstəklə bağlı aparılan geniş müzakirələrə aydınlıq gətirib: "Son günlərdə kütləvi informasiya vasitələrində və sosial mediada Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən din xadimlərinə ayrılan maddi dəstəklə bağlı geniş müzakirələr aparılır. Qeyd edim ki, əksər hallarda yanlış olaraq bu dəstək din xadimlərinə əməkhaqqı verilməsi kimi göstərilir. Amma bu yanaşma doğru deyil. Belə ki, Qafqaz Müsəlmanları İdarəsi tərəfindən rəsmi təyin edilmiş müəyyən sayda din xadiminə Fondla din xadimləri arasında bağlanan müqavilə əsasında maddi dəstək verilməsi nəzərdə tutulub.

Bir daha qeyd edim ki, bu, əməkhaqqı deyil. Əməkhaqqı əmək müqaviləsinə əsasən daimi verilir. Bu məsələdə isə Fondla din xadimləri arasında bağlanan müqavilə 10 ay üçün nəzərdə tutulub. Gələcəkdə müqavilənin müddəti uzadıla bilər. Müqavilədə bir sıra öhdəliklər var və din xadimləri bu dəstəyi sözügedən öhdəliklərə əməl etmək şərtilə ala biləcəklər. Bu öhdəliklərə əməl etməyənlərə maddi dəstək kəsilə bilər. Hörmətli mətbuat nümayəndələrindən sözügedən mövzuya toxunarkən cəmiyyətdə çaşğınlıq yaranmaması üçün bu məqamı diqqətə almalarını xahiş edirəm".

# “DİNİ MAARİFLƏNDİRMƏ İŞİNİN TƏŞKİLİ: GERÇƏKLİKLƏR VƏ PERSPEKTİVLƏR” MÖVZUSUNDA SEMİNAR-TRENİNQLƏR BAŞ TUTUB



**QOBUSTANDA**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Qobustan Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə mayın 14-də Qobustanda “Dini maarifləndirmə işinin təşkili: gerçəkliklər və perspektivlər” mövzusunda ikigünlük seminar-treninq keçirilib. Rayonun ümumtəhsil məktəblərinin direktorları, təlim-tərbiyə işləri üzrə direktor müavinləri, məktəb psixoloqları, “Həyat bilgisi” fənnini tədris edən müəllimlər və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirin birinci günündə Qobustan RİH başçısının müavini Məharət Əkbərov mövzunun əhəmiyyətindən danışıb.

Daha sonra çıxış edən Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov bildirib ki, bəzi məkrli qruplar cəmiyyətdə tolerantlığın, ənənəvi İslamın zəiflədilməsi, məzhəbçiliyin, radikallığın gücləndirilməsi, eləcə də dinin siyasiləşdirilməsi istiqamətlərində fəaliyyət göstərirlər. Vurğulayıb ki, bu cür qruplara qarşı ideoloji, preventiv, proflaktik və inzibati metodlarla mübarizə aparılır. İslam dünyasında baş verən proseslərdən danışan G.İsmayılovun sözlərinə görə, İslam dini haqqında bilgiləri zəif olan insanların radikal cərəyanlara, qruplara cəlb edilməsi daha asan olur. Ona görə də dini radikalizmlə mübarizədə ilk növbədə dini maarifçilik işinin təşkilinə xüsusi önəm verilir.

DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov, Qobustan şəhər 1 saylı tam orta məktəbinin direktoru İmran Sabirov ölkəmizdə dövlət-din münasibətlərinin əsasının Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulduğunu, bu gün isə möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirildiyini vurğulayıblar.

***İkigünlük seminar-treninq öz işini mayın 15-də davam etdirib.***
Rayonun aktiv gənclərinin və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi seminar-treninqin ikinci gününü giriş sözü ilə açan Qobustan RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Aftandil Şikarov bildirib ki, Azərbaycanda həyata keçirilən din siyasətinin əsas mahiyyəti dini etiqad, vicdan azadlığının təmin edilməsidir.

Daha sonra çıxış edən Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov bildirib ki, dinlərarası, məzhəblərarası vəhdətin və həmrəyliyin hökm sürdüyü respublikamızda tarixin heç bir mərhələsində dini zəmində münaqişələr baş verməyib. Azərbaycan dini, etnik, mədəni və siyasi sahələrdə tolerantlıq baxımından dünya üçün nümunədir. Dini radikalizmlə mübarizə tədbirlərindən də danışan natiq dini ekstremizm, radikalizmlə mübarizədə vəhdətin və həmrəyliyin vacilbliyini diqqətə çatdırıb.

Tədbirdə, həmçinin DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov və başqaları çıxış edərək gənclərin radikal dini qrupların təsirinə düşməməsi üçün mükəmməl təhsil almalarının vacibliyini bildiriblər.

**ZƏRDABDA**

Bu qəbildən növbəti ikigünlük seminar-treninq DQİDK-nın və Zərdab RİH-in birgə təşkilatçılığı ilə mayın 17-də Zərdabda keçirilib. Rayonun ümumtəhsil məktəblərinin direktorları, təlim-tərbiyə işləri üzrə direktor müavinləri, məktəb psixoloqları, “Həyat bilgisi” fənnini tədris edən müəllimlər və ictimaiyyət nümayəndələri iştirak etdiyi tədbirin birinci günündə Zərdab RİH başçısının müavini Ramo Hacıyev dini maarifləndirmənin əhəmiyyətindən danışıb. Natiq, eyni zamanda rayondakı dini durum barədə ətraflı məlumat verib.

Daha sonra çıxış edən Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov respublikamızdakı tolerantlıq mühitinin dünyaya nümunə olduğunu bildirib. DQİDK sədrinin müavininin sözlərinə görə, tolerantlıq xalqımızın gen yaddaşına hopmuş dəyərdir. Dini radikalizm və ekstremizmin fəsadlarından da danışan G.İsmayılov deyib ki, müasir dövrümüzdə dini radikalizm dünya miqyasında narahatlığa səbəb olan əsas problemlərdəndir. Hazırda radikalizm məzhəblər, dinlərarası dözümsüzlük, eləcə də zorakılıq və digər motivlərlə törədilən terror aktlarında təzahür edir. İslam dininin gənclərin mənəvi-əxlaqi tərbiyəsində yeri və rolunun düzgün istiqamətləndirilməli olduğunu diqqətə çatdıran natiq vurğulayıb ki, dindən siyasi məqsədlər üçün istifadəyə yol verilməməlidir.

DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov və başqaları çıxışlarında İslamın dini radikalizmin qarşısının alınması, dözümlülük mədəniyyətinin tərbiyə edilməsi və dinlərarası dialoq məsələlərinin qaydaya salınmasında böyük rol oynayan barışıq potensialına və geniş üfüqi əlaqələr şəbəkəsinə malik olduğunu diqqətə çatdırıblar.

***Seminar-treninq öz işini növbəti gün davam etdirib.*** Rayonun aktiv gənclərinin və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan RİH başçısının müavini Ramo Hacıyev İslam dəyərlərinin öyrənilməsinin və düzgün təbliğ olunmasının, bu sahədə maarifləndirmə işinin təşkilinin daha da gücləndirilməsinin zəruriliyindən danışıb.

Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov dövlət-din münasibətlərindən danışaraq bildirib ki, respublikamız müstəqilliyini bərpa etdikdən sonra xalqımızın öz milli-mənəvi dəyərlərinə qayıdışı sürətlənib. Bu istiqamətdə Ulu Öndərimiz Heydər Əliyevin müstəsna xidmətləri olub. Hazırda Prezident İlham Əliyevin milli-mənəvi dəyərlərimizin qorunması və təbliği istiqamətində həyata keçirdiyi tədbirlərdən bəhs edən G.İsmayılov mənəvi dəyərlərin qorunmasını və inkişafını, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədilə dövlət başçısının Sərəncamı əsasında Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması barədə danışıb. Müasir cəmiyyətdə dini dəyərlərin düzgün təbliğinin əhəmiyyətini yüksək qiymətləndirərək qeyd edib ki, gənclərə İslam dini doğru şəkildə çatdırılmalıdır. Bu baxımdan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını təmin etmək üçün yaradılan Azərbaycan İlahiyyat İnstitutunda hazırlanacaq kadrlar mühüm rol oynayacaq.

DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov və Zərdab Rayon Gənclər və İdman İdarəsinin rəisi İlqar Əliyev bildiriblər ki, dünyaya multikulturalizmin nümunəsi kimi təqdim olunan Azərbaycan modeli dinlərarası dialoqun və mədəni əlaqələrin inkişafına öz töhfəsini verməkdədir.

**AĞDAMDA**

“Dini maarifləndirmə işinin təşkili: gerçəkliklər və perspektivlər” mövzusunda növbəti seminar-treninq mayın 18-də Ağdam rayonunun Quzanlı qəsəbəsində keçirilib.

Rayonun aktiv gənclərinin və tələbələrin iştirak etdiyi tədbirin birinci hissəsini giriş sözü ilə açan RİH başçısının birinci müavini Allahverən Əliyev dövlət və din münasibətləri, dini icmaların fəaliyyəti istiqamətində görülən işlər barədə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Daha sonra çıxış edən Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov bildirib ki, tolerantlıq və multikulturalizm milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir: “Müxtəlif konfessiyalar, sivilizasiyalar və məzhəblər arasında həmrəyliyin hökm sürdüyü Azərbaycan dünyaya nümunə olan ölkələrdəndir. Əsrlər boyu ayrı-ayrı millətlərin nümayəndələri Azərbaycanda müxtəlif dövrlərdə dini ayrı-seçkiliyə məruz qalmayıb, sülh şəraitində yaşayıblar”.

DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov və digər natiqlər dini maarifləndirmə tədbirlərinin əhəmiyyətini yüksək qiymətləndiriblər. Natiqlər gənclərin ayıq-sayıqlığının artırılmasının və müəyyən bilgilərə yiyələnmələrinin, eyni zamanda onların radikalizmə qarşı mübarizədə fəal olmalarının vacibliyini diqqətə çatdırıblar.

***Ağdam Rayon Heydər Əliyev Mərkəzində baş tutan seminar-treninqin ikinci hissəsində rayonun ümumtəhsil məktəblərinin direktorları, təlim-tərbiyə işləri üzrə direktor müavinləri, məktəb psixoloqları, “Həyat bilgisi” fənnini tədris edən müəllimlər və ictimaiyyət nümayəndələri iştirak ediblər.***

Tədbiri giriş sözü ilə açan RİH başçısı Raqub Məmmədov respublikamızda mövcud olan dövlət-din münasibətlərindən, dinlərarası dialoq sahəsində həyata keçirilən dövlət siyasətindən bəhs edib. Natiq ərazisinin böyük hissəsinin erməni işğal altında olan Ağdam rayonundakı mövcud dini durum barədə də geniş məlumat verib.

Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini etiqad azadlığının təmin olunması, dini ekstremizm və radikalizm meyillərinin qarşısının alınması məqsədilə paytaxtda və bölgələrdə dini maarifləndirmə tədbirlərinin həyata keçirildiyini diqqətə çatdırıb. Sədr müavini vurğulayıb ki, DQİDK müvafiq dövlət qurumları ilə birgə xüsusilə gənclərin zərərli dini ideologiyaların təsiri altına düşməsinə qarşı preventiv tədbirlərin görülməsi istiqamətində fəaliyyət göstərir. Qeyd edib ki, ictimai-siyasi və dini sahədə sabitlik dövlətimiz üçün hər zaman prioritet məsələdir.



# TARİXİMİZİN ŞANLI SƏHİFƏSİ – AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ

***Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilib. Bununla əlaqədar olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Mərkəzi Aparatı və regional şöbələri müxtəlif qurumlarla birgə bir sıra tədbirlər həyata keçirib. Gənclərin, müəllim və şagirdlərin, dini icmaların sədrlərinin, ictimaiyyət nümayəndələrinin iştirakı ilə baş tutan tədbirlərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət-din münasibətləri, Azərbaycanın dövlətçilik ənənələrinin tarixi, gənclərə vətənpərvərlik hisslərinin aşılanması və s. məsələlər müzakirə edilib.***

Bu qəbildən olan tədbirlər:



**7 may** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə rayonun Gəgiran kənd tam orta məktəbində "Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin tarixi varisidir" mövzusunda;

**16 may** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə rayonun Tükəvilə kənd tam orta məktəbində;

**18 may** – DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi, Suraxanı Rayon İcra Hakimiyyəti (RİH), Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu və "Suraxanıoyl" əməliyyat şirkətinin birgə təşkilatçılığı ilə Yeni Suraxanı qəsəbəsi 85 nömrəli tam orta məktəbdə "Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin beynəlxalq münasibətləri" mövzusunda;

**22 may** – DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi, Suraxanı RİH, Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu birgə təşkilatçılığı ilə Zığ qəsəbəsi 317 nömrəli tam orta məktəbdə "Azərbaycan Respublikası Xalq Cümhuriyyəti dövründə Azərbaycan mədəniyyəti" mövzusunda;



**23 may** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə rayonunun Kənarmeşə kənd tam orta məktəbində; Kürdəmir RİH, DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Kürdəmir Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə; Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Xətai rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə 257 saylı tam orta məktəbdə; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi, Suraxanı RİH və Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun birgə təşkilatçılığı ilə Suraxanı rayon 15 saylı birləşmiş şəhər xəstəxanasında "Azərbaycan Xalq Cümhuriyyəti necə yarandı" mövzusunda;

**24 may** – DQİDK-nın Bakı şəhəri üzrə şöbəsinin və Nizami RİH-in birgə təşkilatçılığı ilə Bakı şəhəri Nizami rayonu 272 saylı tam orta məktəbdə "Cümhuriyyət dövründə dövlət-din münasibətləri" mövzusunda; DQDİK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayonu Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) birgə təşkilatçılığı ilə Zərdab rayonu Mərkəzi Kitabxanasında; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin, Ağdaş Rayon İcra Hakimiyyəti və Ağdaş rayon Gənclər və İdman idarəsinin birgə təşkilatçılığı ilə "Azərbaycan Xalq



Cumhuriyyəti və miras qoyduğu milli dövlətçilik ənənələri" mövzusunda;

**25 may** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşəbbüsü ilə Sumqayıt şəhəri 41 nömrəli tam orta məktəbdə; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Yasamal RİH-in birgə təşkilatçılığı ilə Yasamal rayonu Heydər Əliyev Mərkəzində; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi, Yevlax RİH-in və şəhər 3 saylı tam orta məktəbin birgə təşkilatçılığı ilə "2018-ci ilin Azərbaycan Xalq Cumhuriyyəti ili elan edilməsinin ictimai-siyasi və elmi-tarixi mahiyyəti" mövzusunda; DQİDK-nin Yevlax bölgəsi üzrə şöbəsinin və Mingəçevir Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Gənclər Evində "Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət-din münasibətləri" mövzusunda;

**26 may** – Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qaradağ RİH-in birgə təşkilatçılığı ilə Cəmil Niftəliyev adına 233 saylı tam orta məktəbdə təşkil edilib.

Tədbirlərdə çıxış edən natiqlər dövlətçilik tariximizin şanlı səhifəsi olan, 1918-ci ilin 28 may tarixində əsası



qoyulan Azərbaycan Xalq Cümhuriyyətinin demokratik ənənələrə sadiqliyinin, azadlıq ruhunun, insanların və millətlərin haqq və hüquqlarına hörmət və ehtiramının təntənəsi olduğunu diqqətə çatdırıblar. Həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı ərəfədə beynəlxalq aləmdə və regionda baş verən proseslərdən danışaraq vurğulayıblar ki, xalqımızın maarifpərvər ziyalıları, dövrün siyasi xadimləri, yazıçı və şairləri daim milli kimliyimizin, dövlətçilik ənənələrimizin qorunması və gələcək nəsillərə ötürülməsi istiqamətində gərgin mübarizə aparıblar.

Mövzular ətrafında geniş müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# MƏNƏVİ DƏYƏRLƏRİN TƏBLİĞİ FONDU TƏRƏFİNDƏN CƏNUB BÖLGƏSİNDƏ İFTAR SÜFRƏLƏRİ TƏŞKİL OLUNUB

26 və 27 may tarixlərində Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən Masallı və Lənkəran rayonlarında şəhid ailələri və Qarabağ müharibəsi veteranları üçün iftar süfrələri təşkil olunub.

Hər iki tədbirdə çıxış edən Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 10 oktyabr 2017-ci il tarixli Fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılan Fondun əsas fəaliyyət istiqamətləri barədə məlumat verib və Fondun yaradılmasının dövlətin mənəvi və dini dəyərlərə qayğısının bariz təzahürü olduğunu qeyd edib.

Ramazanın həmrəylik, sevgi və mərhəmət ayı olduğunu qeyd edən Mehman



İsmayılov bu cür tədbirlərin keçirilməsinin əhəmiyyətini vurğulayıb və şəhid ailələrinin, müharibə əlillərinin daim dövlətin diqqət mərkəzində olduğunu bildirib. İcraçı direktor yeni fəaliyyətə başlayan Fondun gələcəkdə mənəvi və dini dəyərlərin qorunması və inkişafı, dini maarifləndirmə işinin təşkili, dövlət-din münasibətlərinin tənzimlənməsi və s. istiqamətlərdə mühüm işlərə imza atacağını bildirib.

Digər çıxışçılar da öz növbəsində belə bir müqəddəs ayda şəhidlərin yad edilməsinin önəmini vurğulayıb, Azərbaycanın müstəqilliyi uğrunda canlarından keçən Vətən övladlarının daim xalqımızın qəlbində yaşadığını söyləyiblər.

Sonda şəhidlərin ruhuna dualar oxunub.

# QISA-QISA

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini davam etdirir. Bu istiqamətdə keçirilən tədbirlərdə ölkəmizdəki multikultural və tolerant mühit, həmçinin dini radikalizmə qarşı mübarizənin mahiyyəti haqqında çıxışlar edilir, dövlət-din münasibətlərinin hüquqi bazası barədə məlumat verilir, eləcə də dini icmaların maarifləndirmə sahəsində fəallığının daha da artırılması məqsədilə müzakirələr aparılır. Tədbirlərdə Dövlət Komitəsinin əməkdaşları ilə yanaşı, respublikanın müxtəlif şəhər və rayonlarının icra hakimiyyəti və hüquq mühafizə orqanı rəhbərləri, gənclər, dini icma sədrləri, din xadimləri, dindarlar, ilahiyyatçılar, ziyalılar və ictimaiyyət fəalları iştirak edirlər. Keçirilən tədbirlər DQİDK-nın təşkilatçılığı ilə, eyni zamanda Dövlət Komitəsi ilə müvafiq dövlət qurumları arasında imzalanan Tədbirlər Planına uyğun olaraq reallaşdırılır. Cari ay ərzində bu qəbildən olan tədbirlər:***

**1 may** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Zaqatala Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Vətənpərvərlik dini radikalizmə qarşı aparılan mübarizədə ən önəmli vasitədir" mövzusunda; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Qaradağ RİH-in birgə təşkilatçılığı ilə;



**2 may** - DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi və Şəki şəhər Təhsil şöbəsinin birgə təşkilatçılığı ilə "Narkomaniya, erkən nikah, dini radikalizm və onun fəsadları" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Samux RİH-in birgə təşkilatçılığı ilə "Vətənpərvər gəncliyin dini radikalizmə qarşı mübarizəsi" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Şabran RİH-in birgə təşkilatçılığı ilə "Vətən sevgisi imandandır" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lerik rayonu Əbülfəz Məmmədov adına Mastayıl kənd tam orta məktəbində "Heydər Əliyev və Azərbaycan tarixi" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Qax RİH və Qax rayon Təhsil şöbəsinin birgə təşkilatçılığı ilə rayonun 2 nömrəli tam orta məktəbində;

**3 may** - DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Zəngilan RİH-in birgə təşkilatçılığı ilə "Ümummilli Lider Heydər Əliyev – Azərbaycanda dövlət-din münasibətlərinin banisi" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Masallı rayon Gənclər və İdman idarəsi və Masallı Dövlət Regional Kollecinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi, Ağdaş RİH və Ağdaş rayon Gənclər və İdman idarəsinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev: tolerantlıq və multikulturalizm idealları" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran Şəhər Təhsil şöbəsinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və Quba Dövlət Sosial-İqtisadi Kollecinin birgə təşkilatçılığı ilə "Vətən sevgisi imandandır" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və Qazax RİH-in birgə təşkilatçılığı ilə "Vətənə sevgi imandandır" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi, Füzuli RİH və Qafqaz Müsəlmanları İdarəsinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və dövlət-din münasibətləri" mövzusunda;

**4 may** - DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Astara Rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Əbədiyaşar Şəxsiyyət" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Balakən Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Milli kimliyi qoruyan Azərbaycan gəncliyi" mövzusunda;

**7 may** - DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə İmişli şəhər 2 saylı tam orta məktəbində "Vətənpərvərlik hisslərini qorumaq və inkişaf etdirmək hər bir vətəndaşın borcudur" mövzusunda; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Xətai RİH-in birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətilə;



**8 may** - DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi, Şəki Rayon Polis Şöbəsi, Şəki Rayon Prokurorluğu və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə zərərli vərdişlərin fəsadları mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Lənkəran rayonu üzrə təmsilçiliyinin birgə təşkilatçılığı ilə "Dini-tarixi abidələrimiz mədəni sərvətimizdir" mövzusunda; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Xətai RİH-in birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətilə; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Zaqatala RİH-in birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərimizin qorunması uğurlu gələcəyimizin zəmanətidir" mövzusunda;

**10 may** - DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Xətai RİH-in birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətilə;



**15 may** - DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi, Şəki Rayon Polis Şöbəsi və Şəki Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Narkomaniya və zərərli vərdişlərlə mübarizə yolları" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lerik rayonu Rəşid Nurullayev adına Cəngəmiran kənd tam orta məktəbində "Vətənpərvərliyin təbliği dini radikalizmə qarşı mübarizə vasitəsi kimi" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayonu Uşaq və Ailələrə Dəstək Mərkəzinin birgə təşkilatçılığı ilə "Ailə institutu və dini dəyərlərin vəhdəti" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Ağdam RİH-in birgə təşkilatçılığı ilə Ağdam rayonunun İmamqulubəyli qəsəbə tam orta məktəbində;

**16 may** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) bölgə qazılığının birgə təşkilatçılığı ilə; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Balakən RİH-in birgə təşkilatçılığı ilə "Müasir gənclik və milli-mənəvi dəyərlər" mövzusunda; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi, Səbail RİH və Səbail Rayon Polis İdarəsinin birgə təşkilatçılığı ilə "Dini radikalizmə qarşı mübarizədə gənclərin rolu" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və İsmayıllı RİH-in birgə təşkilatçılığı ilə Ramazan ayının başlanması ilə əlaqədar; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Astara RİH və QMİ-nin birgə təşkilatçılığı ilə "Dövlət-din münasibətlərinin Azərbaycan modeli" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lənkəran Şəhər İcra Hakimiyyəti və QMİ-nin birgə təşkilatçılığı ilə Ramazan ayının başlanması ilə əlaqədar;

**17 may** - DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının birgə təşkilatçılığı ilə "Vətən sevgisi imandandır" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lerik RİH və QMİ-nin səlahiyyətli nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərin təbliğində din xadimlərinin rolu" mövzusunda; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Şuşa RİH-in birgə təşkilatçılığı ilə "Gənclərin hərbi vətənpərvərlik tərbiyəsi" mövzusunda;

**18 may** - DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Samux RİH-in birgə təşkilatçılığı ilə vətənpərvərlik mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Füzuli RİH-in birgə təşkilatçılığı ilə müqəddəs Ramazan ayının başlaması ilə əlaqədar;

**22 may** - DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, İsmayıllı RİH, İsmayıllı Rayon Polis Şöbəsi və İsmayıllı Uşaq və Ailələrə Dəstək Mərkəzinin birgə təşkilatçılığı ilə "Dini radikalizm, zərərli vərdişlər və erkən nikah" mövzusunda;

**23 may** - DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və Zaqatala Rayon Təhsil Şöbəsinin birgə



təşkilatçılığı ilə "Vətənpərvər Azərbaycan gəncliyi" mövzusunda;

**24 may** - DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin və Saatlı RİH-in birgə təşkilatçılığı ilə insan hüquqları mövzusunda;

**25 may** - DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə İmişli rayonu Rəsullu kənd tam orta məktəbində "Vətənpərvərlik Vətənə xidmətin ən ali zirvəsidir" mövzusunda keçirilib.

Tədbirlərdə Azərbaycanda tarixən mövcud olan tolerantlıq və multikultural dəyərlərdən söz açan natiqlər Ulu Öndər Heydər Əliyevin milli-mənəvi dəyərlərimizin qorunması, dini dözümlülük ənənələrinin möhkəmləndirilməsi sahəsində əvəzsiz xidmətlərindən bəhs ediblər. Qeyd olunub ki, məhz Ümummilli Liderin düşünülmüş siyasəti və səyləri sayəsində ölkəmizdə milli-mənəvi dəyərlərə münasibətdə yeni mərhələnin əsası qoyulub.

Həmçinin tədbirlərdə dini radikalizmi yaradan səbəblərdən, onun müasir dövrdəki təzahürlərindən söz açılıb. Vurğulanıb ki, bu mövzuda cəmiyyətlə aparılan ictimai müzakirələr radikalizm və terrorizmə qarşı mübarizədə öz müsbət təsirini göstərir. Çıxışçılar bu cür tədbirlərin Azərbaycan gəncliyinin öz qədim tarixi irsinə, milli-mənəvi dəyərlərinə sadiq qalmalarına, vətənə məhəbbət, torpağa sədaqət ruhunda tərbiyə olunmalarına kömək etdiyini deyiblər. Bildirilib ki, gənclərimizin düzgün istiqamətləndirilməsində, onların sağlam düşüncəli vətəndaş kimi yetişməsində dini icmaların və din xadimlərinin üzərinə böyük məsuliyyət düşür.

Tədbirlərdə müqəddəs Ramazan ayının başlanması ilə bağlı verilən fətva, bu ay ərzində keçiriləcək tədbirlər barədə də söhbət açılıb. Bildirilib ki, din xadimləri Ramazan ayı boyu QMİ-nin xüsusi təqviminə riayət etməli, müvafiq orqanlarla mütəmadi fikir mübadiləsi aparmalıdırlar.

# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

## DƏYİŞİKLİK

### Masallı rayonu Mollaoba kənd məscidi dini icması

**Qeydiyyat tarixi:** 11 dekabr 2009-cu il
**Qeydiyyat №-si:** 100109A2 – 83

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əsgərov Həsənağa Şamil oğlu, Məmmədov Höccət Əhəd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Məcidov Rəşad Cabir oğlu, Həsənov Urfan Əkbər oğlu, Məcidov Cavid Cavad oğlu, Səfərli Eldəniz Urfan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Məcidov Cabir Hüseyin oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Həsənov Salman Yadulla oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi: 01 may 2018-ci il**

### Masallı şəhəri "İmam Hüseyn" məscidi dini icması

**Qeydiyyat tarixi:** 09 aprel 2010-cu il
**Qeydiyyat №-si:** 100110A2 – 279

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məhərrəmov Əbil İbrahim oğlu, İsmayılov Vüsal Sakit oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Baxışov Fəxrəddin Əlisa oğlu, Bağışov Savalan Ağakişi oğlu, Əsədullayev Həsən Aydın oğlu, Əliyev Elman İskəndər oğlu, Baxışov Elbrus Fəxrəddin oğlu, Hüseynov Zahir Möhsüm oğlu, Mircavadlı Ramin Rasim oğlu, Bağışov Xankişi Əlisa oğlu, Bağışov Ruslan Ağakişi oğlu, Məhərrəmov Yaşar Əbil oğlu, İbrahimov Çingiz Əsəd oğlu, Rəfiyev Nazim Əliağa oğlu, Bağışov Elvin Ağakişi oğlu, Ağayev Vüqar Daxıl oğlu, Əliyev Ramil Hacıağa oğlu, İbrahimov Natiq Əsəd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Məhərrəmov Əbil İbrahim oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Bağışov Ağakişi Əlisa oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi: 01 may 2018-ci il**

### Masallı rayonu Təzəkənd kənd məscidi dini icması

**Qeydiyyat tarixi:** 19 may 2010-cu il
**Qeydiyyat №-si:** 100110A3 – 370

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əmənov Qardaşxan Xanoğlan oğlu, Nuriyev Ələkbər Mövsüm oğlu, Tağıyev İnşalla Tarverdi oğlu, Tağıyev Aydın Tarverdi oğlu, Aslanov Sahib Əli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Kərimov Tağı Ağamir oğlu, Qurbanov Mirərzuman Mirağa oğlu, Rafis Asif oğlu Miriyev, Nəbiyev Vurğun Sahib oğlu, Ağayev Sərxoş Yadulla oğlu, Əliyev Ruslan Soltanağa oğlu, Vahabzadə Xalid Qardaşəli oğlu, Nəbiyev Valeh Sultan oğlu, Səfərov Sərdar Sadıq oğlu, Ağayev Rakif Akif oğlu, Rzayev Zaur Ehtibar oğlu, Tağıyev Qardaşxan Daşı oğlu, Məcidov Elxan Kamil oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi: 01 may 2018-ci il**

### Lənkəran rayonu Ürgə kənd məscidi dini icması

**Qeydiyyat tarixi:** 20 aprel 2016-cı il
**Qeydiyyat №-si:** 100116C – 629

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Musayev Məhəmməd Zayrəli oğlu, Hüseynov Rəhimağa Murad oğlu, Məmmədov Uruf Balaxan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Abbasov Atakişi Cabbar oğlu, Hüseynov Elçin Ağasi oğlu, Musayev İlham Məhəmməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi: 16 may 2018-ci il**

### Xaçmaz rayonu Həsənqala kənd məscidi dini icması

**Qeydiyyat tarixi:** 27 yanvar 2010-cu il
**Qeydiyyat №-si:** 100110A1 – 187

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qurbanov Fərhad Əhəd oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Qəhrəmanlı Davud Teyyub oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Qurbanov Fərhad Əhəd oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Qəhramanlı Davud Teyyub oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi: 18 may 2018-ci il**

## LƏĞV OLUNUBLAR

### İsmayıllı rayonunun Tircan kəndində fəaliyyət göstərən kənd məscidi dindarlarının dini icması

**Qeydiyyat tarixi:** 28.09.1999-cu il
**Qeydiyyat №-si:** 317

İsmayıllı rayonunun Tircan kəndində fəaliyyət göstərən kənd məscidi dindarlarının dini icması təsisçilərinin 23.02.2018-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

**Ləğv olunması: 11 may 2018-ci ildə qeydə alınıb.**

### Qusar rayonunun dini icması

**Qeydiyyat tarixi:** 28.10.1994-cü il
**Qeydiyyat №-si:** 60

Qusar rayonunun dini icması təsisçilərinin 22.01.2018-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

**Ləğv olunması: 11 may 2018-ci ildə qeydə alınıb.**

### Xaçmaz rayon məscidinin dini icması

**Qeydiyyat tarixi:** 22.06.1995-ci il
**Qeydiyyat №-si:** 98

Xaçmaz rayon məscidinin dini icması təsisçilərinin 23.02.2018-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

**Ləğv olunması: 11 may 2018-ci ildə qeydə alınıb.**

### Xaçmaz rayon Müşkür kəndindəki dini icma

**Qeydiyyat tarixi:** 23.02.1994-cü il
**Qeydiyyat №-si:** 3

Xaçmaz rayon Müşkür kəndindəki dini icma təsisçilərinin 23.02.2018-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

**Ləğv olunması: 11 may 2018-ci ildə qeydə alınıb.**

### Göyçay rayonu Kürdşaban kənd dini icması

**Qeydiyyat tarixi:** 26.04.2002-ci il
**Qeydiyyat №-si:** 102

Göyçay rayonu Kürdşaban kənd dini icması təsisçilərinin 26.03.2018-ci il tarixli, 03 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

**Ləğv olunması: 18 may 2018-ci ildə qeydə alınıb.**

### Bakı şəhəri Binəqədi rayon dini icması

**Qeydiyyat tarixi:** 24.06.2003-cü il
**Qeydiyyat №-si:** 191

Bakı şəhəri Binəqədi rayon dini icması təsisçilərinin 23.04.2018-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

**Ləğv olunması: 18 may 2018-ci ildə qeydə alınıb.**

## ELANLAR

Gəncə şəhəri "Qazaxlar" məscidi dini icmasının (100109A2 – 41 nömrəli, 01.12.2009-cu il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 21.05.2018-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

"İmam Zaman" dini icmasına Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının qərarına əsasən verilmiş 102 nömrəli, 17.05.1995-ci il tarixli Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

# Mətbuat Xidmətinin məlumatı

Mayın 11-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Xəzər Rayon İcra Hakimiyyəti əməkdaşlarının birgə iştirakı ilə dini qurumların fəaliyyət qaydasının pozulması haqqında daxil olan məlumatın yoxlanılması məqsədilə Xəzər rayonu, Binə qəsəbəsində yerləşən qeyri-qanuni məscid tipli ibadət yerinə baxış keçirilib.

Baxış əsnasında həmin ərazidə qanunazidd qaydada dini yığıncaqların, digər dini mərasimlərin təşkili və keçirilməsi, eləcə də, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununun müvafiq maddələrinin pozulduğu aşkar edilib.

Bununla bağlı qeyd edilən ünvanda qeyri-qanuni olaraq dini ayin icra edən Binyətov Gülverdi Allahverdi oğlu barəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşları tərəfindən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 515.0.2-ci maddəsi ilə inzibati xəta haqqında protokol tərtib edilərək aidiyyəti üzrə məhkəməyə göndərilib.

# CƏMİYYƏT və DİN

№ 05 (322) / MAY 2018-ci il


## “AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ: DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ” KİTABI NƏŞR OLUNUB




Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə “Azərbaycan Xalq Cümhuriyyəti: dövlət-din münasibətləri” kitabı çap edilib. Üç fəsildən ibarət olan kitabın birinci fəslində XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda mövcud olmuş ictimai-siyasi, xüsusilə də dini vəziyyət, ermənilərin 1905-1906-cı və 1918-ci illərdə törətdikləri soyqırımları haqqında ətraflı danışılır. Həmçinin bir qrup ziyalımızın o dövrdə apardığı maarifçilik mübarizəsi və bu mübarizənin bazasında formalaşan milli müstəqillik ideologiyasının formalaşmasından bəhs edilir.

Kitabın ikinci fəsli bütövlükdə Azərbaycan Xalq Cümhuriyyəti dövrünə həsr edilib. Bu fəsildə müstəqilliyin elan edildiyi gündən işğal gününədək din sahəsində görülən işlər, dinin cəmiyyət həyatındakı rolu, Dini Etiqad Nazirliyinin təşəkkül tapması, ölkənin ictimai həyatında fəal iştirak etmiş görkəmli din xadimləri, habelə parlamentdə təmsil olunan müsəlman fraksiyalar, müsəlman və qeyri-müsəlman xeyriyyə cəmiyyətləri və s. haqqında oxuculara geniş məlumat təqdim olunur.

Nəşrin üçüncü fəslində isə Azərbaycan Xalq Cümhuriyyətinin layiqli varisi olan müstəqil Azərbaycanda həyata keçirilən din siyasəti haqqında söhbət açılır. Bundan başqa, Ulu Öndər Heydər Əliyev və onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən Xalq Cümhuriyyətinin zəngin mənəvi irsinə olan hörmət, bu irsin geniş şəkildə araşdırılması, eyni zamanda onun qurucularının adlarının əbədiləşdirilməsi istiqamətində atılan ardıcıl addımlar və görülən işlər əyani şəkildə göstərilir.

Kitab hazırlanarkən Azərbaycan Xalq Cümhuriyyəti dövrünü geniş şəkildə araşdıran mütəxəssislər, görkəmli tarixçilər və elm xadimləri ilə geniş məsləhətləşmələr aparılıb, onların əsərlərindən istifadə olunub, çoxsaylı arxiv materiallarından istifadə edilib. Ümid edirik ki, bu nəşr Cümhuriyyət dövründə mövcud olmuş dövlət-din münasibətlərinin doğru-düzgün öyrənilməsi istiqamətində gənclərimiz və Azərbaycan Xalq Cümhuriyyətinin zəngin tarixi ilə maraqlanan geniş oxucu auditoriyası üçün dəyərli vəsait olacaqdır.

Qeyd edək ki, kitabın müəllifləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşları Elnarə Kərimova, Aqşin Axundov, Azad Nəhmədov, Turan Nəsirova və Saleh Arslandır.

## İNSAN AYDA MƏHZ BU SƏBƏBƏ GÖRƏ ÖLƏ BİLƏR



NASA-nın yaydığı məlumatda bildirilir ki, uzun müddət Ayda qalmaq sağlamlığa zərərlidir. Belə ki, Aydakı toz insanın DNT-sinin dəyişməsinə səbəb ola bilər. Bu toz həmçinin xərçəng hüceyrələrinin inkişafını da sürətləndirir.

Bundan əvvəl ABŞ-ın “Apollon” missiyasını həyata keçirən kosmonavtlar gəminin içinə toz düşməsindən sonra tez-tez asqırdıqlarını və gözlərində problem yarandığını bildiriblər.

Alimlər insan hüceyrələrinin üzərinə Ay tozu tökərək müşahidə aparıblar. Nəticələrə görə, hüceyrələr tozun təsiri nəticəsində dəyişib. Ona görə də toz canlı orqanizm üçün çox təhlükəlidir. O, orqanizmi ya məhv edir, ya da dəyişdirir.

### Yadigar söz

*Heydər Əliyev,*
*Ümummilli Lider*

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, “İstiqlal bəyannaməsi”nin elan olunması böyük zəka, uzaqgörənlik, cəsarət, iradə, qəhrəmanlıq tələb edirdi. Bizim dəyərli siyasi xadimlərimiz o il, o ay, o gün bu tarixi addımı atdılar.

## Bakı və Abşeron üzrə namaz vaxtları (iyun - 2018)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 03:29 | 05:13 | 12:38 | 17:49 | 20:21 | 21:40 |
| 2 | 03:29 | 05:12 | 12:38 | 17:49 | 20:21 | 21:41 |
| 3 | 03:28 | 05:12 | 12:39 | 17:50 | 20:22 | 21:42 |
| 4 | 03:27 | 05:12 | 12:39 | 17:50 | 20:23 | 21:43 |
| 5 | 03:27 | 05:11 | 12:39 | 17:51 | 20:24 | 21:44 |
| 6 | 03:26 | 05:11 | 12:39 | 17:51 | 20:24 | 21:45 |
| 7 | 03:25 | 05:11 | 12:39 | 17:52 | 20:25 | 21:46 |
| 8 | 03:25 | 05:10 | 12:40 | 17:52 | 20:25 | 21:46 |
| 9 | 03:24 | 05:10 | 12:40 | 17:52 | 20:26 | 21:47 |
| 10 | 03:24 | 05:10 | 12:40 | 17:53 | 20:27 | 21:48 |
| 11 | 03:24 | 05:10 | 12:40 | 17:53 | 20:27 | 21:49 |
| 12 | 03:23 | 05:10 | 12:40 | 17:53 | 20:28 | 21:49 |
| 13 | 03:23 | 05:10 | 12:40 | 17:54 | 20:28 | 21:50 |
| 14 | 03:23 | 05:10 | 12:41 | 17:54 | 20:29 | 21:50 |
| 15 | 03:23 | 05:10 | 12:41 | 17:54 | 20:29 | 21:51 |
| 16 | 03:23 | 05:10 | 12:41 | 17:55 | 20:29 | 21:51 |
| 17 | 03:23 | 05:10 | 12:41 | 17:55 | 20:30 | 21:52 |
| 18 | 03:23 | 05:10 | 12:42 | 17:55 | 20:30 | 21:52 |
| 19 | 03:23 | 05:10 | 12:42 | 17:56 | 20:30 | 21:53 |
| 20 | 03:23 | 05:10 | 12:42 | 17:56 | 20:31 | 21:53 |
| 21 | 03:23 | 05:10 | 12:42 | 17:56 | 20:31 | 21:53 |
| 22 | 03:23 | 05:11 | 12:42 | 17:56 | 20:31 | 21:53 |
| 23 | 03:23 | 05:11 | 12:43 | 17:56 | 20:31 | 21:53 |
| 24 | 03:24 | 05:11 | 12:43 | 17:57 | 20:31 | 21:53 |
| 25 | 03:24 | 05:11 | 12:43 | 17:57 | 20:32 | 21:54 |
| 26 | 03:25 | 05:12 | 12:43 | 17:57 | 20:32 | 21:54 |
| 27 | 03:25 | 05:12 | 12:43 | 17:57 | 20:32 | 21:53 |
| 28 | 03:25 | 05:12 | 12:44 | 17:57 | 20:32 | 21:53 |
| 29 | 03:26 | 05:13 | 12:44 | 17:57 | 20:32 | 21:53 |
| 30 | 03:27 | 05:13 | 12:44 | 17:57 | 20:31 | 21:53 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## İsveçli rahib: Müsəlmanlara qarşı lüzumsuz qorxu və narahatlıq duyulur

İsveçdə rahib Lindquistin sosial şəbəkə hesabından müsəlmanlarla bağlı paylaşdığı status bəyənmə və paylaşım rekordu qırıb. Rahib Lindquist statusunda yazır: “Bir müsəlman mənə təzə yumurta gətirdi. Digəri əhvalımı soruşdu. Bir başqası isə avtomobilim təmirdə olduğu üçün mənə öz avtomobilindən istifadə etməyi təklif etdi. Pulu olmayan yoldaşının evinə davamlı olaraq yemək aparan başqa bir müsəlman da tanıyıram”.

Paylaşımında müsəlmanlar ilə isveçliləri müqayisə edən Lindquist vurğulayıb ki, bir isveçlinin pul almadan birinə yumurta verməsinə qətiyyən inanmıram.

O, sözügedən statusun davamında qeyd edir: “Artıq biz gözümüzü açıb, gerçəkləri görməliyik. Bu hadisələrdən sonra çox nəzakətli və comərd müsəlman dostlarımın olduğunu fərq etdim. Onların əksəriyyətinin bir isveçlidə görə bilmədiyim qədər gözəl ürəyi var. Heç birində nifrət hiss etmədim. Məncə, insanlara qarşı davranış tərzimizdən çox şey asılıdır. Onları qəbul edib həyatınıza daxil etsəniz, qarşılığında sevgi görəcəksiniz. Halbuki biz gündə bir neçə dəqiqə məscidlərdən azan oxunmasını belə, bu insanlara çox görürük”.



Statusun sosial şəbəkədə bəyənmə və paylaşım rekordu qırmasının ardından “Aftonbaldet” qəzetinə verdiyi açıqlamasında Lindquist bildirib ki, o bu paylaşımında müsəlmanların əksəriyyətində olan insan sevgisi və mərhəməti isveçlilərə göstərmək istəyib: “Məncə, müsəlmanlara qarşı lüzumsuz bir qorxu və narahatlıq duyulur”.


Baş redaktor **Səyyad ARAN**

**Redaksiya şurası:** Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Raman DADAŞOV *(Məsul katib)*.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894